HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 33 (673) ■ 28 avqust 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

## Azərbaycan dövlətinin apardığı siyasət əhalinin sosial rifah halının daim yüksəlməsinə yönəlib

*Azərbaycan hökumətinin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri ölkənin iqtisadi və maliyyə imkanlarının artması fonunda əhalinin yaşayış şəraitinin yaxşılaşmasına nail olmaqdır. Hökumət, eyni zamanda, bütün vətəndaşlar üçün keyfiyyətli həyat şəraitini təmin etmək üçün ardıcıl və əvvəlcədən dəqiq planlaşdırılmış tədbirlər görür.*

Ölkədəki inflyasiya risklərinin qarşısını almaq və əhalinin real gəlirlərinə təsir imkanlarını minimuma endirmək bu tədbirlər arasında ayrıca yer tutur. Son illərdə respublikamızda sürətlənən inkişaf dinamikası sosial sahədə də özünü nəzərəçarpacaq şəkildə göstərir, eyni zamanda, iqtisadiyyatın bütün bölmələrində çalışan insanların gəlirlərində əhəmiyyətli artım müşahidə olunmaqdadır.

Ümumiyyətlə, ölkəmizdə sosial sahədə həyata keçirilən davamlı tədbirlər son 10 ildə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub və bu tendensiya daha çox əməkhaqqı və pensiyaların artım dinamikasında hiss olunur. 2003-cü ildən başlayaraq iqtisadiyyatda yeni keyfiyyət dəyişikliklərinin baş verməsi ölkənin həyatında ardıcıl müşahidə olunan inkişaf meyillərini daha da sürətləndirib, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosial yönümlü siyasətinin xeyli gücləndirilməsinə şərait yaradıb. Prezident İlham Əliyevin gələcəyə hesablanan strateji proqramında sosial müdafiənin daim gücləndirilməsi çoxşaxəli fəaliyyətin başlıca məqsədi kimi təyin olunub və dövlət başçısı buna ötən illərin güclü sosial müdafiə konsepsiyasının uğurlu nəticələri ilə nail olunduğunu təsdiq edir.

Ölkəmizin maliyyə resurslarının və büdcə gəlirlərinin əsas xərc istiqamətləri vətəndaşların rifah halının yaxşılaşması, aztəminatlı ailələrin lazım olan sosial müdafiə tədbirləri ilə təmin edilməsi, sosial sahədə mövcud olan bütün problemlərin aradan qaldırılması məqsədilə həyata keçirilən tədbirlərin gücləndirilməsinə yönəlib. Belə ki, 2003-2013-cü illər ərzində ölkə əhalisinin məcmu gəlirləri 4,3 milyard manatdan 37 milyard manata qədər artıb. Bu, səkkiz dəfədən çox artım deməkdir. Dövlət başçısı ötən illər ərzində minimum əməkhaqqı, pensiya və müavinətlərin, maaşların qaldırılması ilə bağlı bir neçə dəfə sərəncamlar imzalayıb ki, nəticədə ümumi orta aylıq əməkhaqqı və pensiya məbləğində ciddi artım qeydə alınıb. Son 10 ildə orta pensiya və aylıq əməkhaqları beş dəfədən çox artıb. Onu da qeyd edək ki, bu tendensiya ümumi daxili məhsulda adambaşına düşən milli məhsulun artım dinamikasına da təsir göstərib, respublikanın sosial inkişaf göstəriciləri ilə əlaqədar bir sıra indeksləri yüksəlib. Yeri gəlmişkən, bu illər ərzində əhalinin orta aylıq əməkhaqqının artım dinamikası inflyasiya həddini bir neçə dəfə üstələyib, eyni zamanda, manatın sabitliyi qorunub saxlanılıb. Bütün bu faktorlar son nəticədə əhalinin gündəlik yaşayış imkanlarına müsbət təsir göstərir.



Son dövrlər sosial sektorda aparılan sistemli layihələr, xüsusilə də dövlət müəssisə və təşkilatlarında işləyənlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlər mühüm əhəmiyyət kəsb edir. Bu siyasətin növbəti təsdiqi kimi son günlərdə Prezident İlham Əliyevin sərəncamları əsasında büdcə təşkilatlarında çalışan işçilərin əməkhaqlarının artımını qeyd etmək olar. Sosial təminat, kənd təsərrüfatı, meşə təsərrüfatı, meliorasiya və su təsərrüfatı, ətraf mühitin mühafizəsi, hidrometeorologiya və balıqartırma, mədəniyyət, gənclər və idman müəssisələrində, sərhəd, daxili işlər, feldyeger, milli təhlükəsizlik, fövqəladə hallar, mühafizə və gömrük xidməti orqanlarında çalışan işçilərin əməkhaqlarının artırılması sosial islahatların məntiqi nəticəsidir.

Eyni zamanda, əhalinin qayğıya ən çox ehtiyacı olan təbəqəsini təşkil edən qaçqın və məcburi köçkünlərin normal yaşayışının, həyat şəraitinin təmin edilməsi Azərbaycan hökumətinin sosial siyasətinin prioritet istiqamətini təşkil edir və ötən həftə məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətin həcminin artırılması bu diqqətin nümunəsidir. Respublikanın sosial-iqtisadi inkişafında xidmətlərinə və yüksək peşə ustalığına görə fəxri adlara layiq görülmüş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin, pensiyaların artırılması ilə bağlı tədbirlər insanların rifahının yüksəldilməsində növbəti addımdır. Qeyd edək ki, bu istiqamətdə tədbirlər davam etdirilir və yaxın günlərdə digər strukturların maaşlarının və digər sosial qrupların müavinətlərinin artırılması nəzərdə tutulur.

Onu da qeyd edək ki, 2013-cü ilin əvvəlindən Azərbaycanda yaşayış minimumu ölkə üzrə 116 manat səviyyəsinə, ehtiyac meyarının həddi 93 manata çatdırılıb, işləməyən əhaliyə dövlət tərəfindən təyin olunmuş sosial müavinətlərin həcmi artırılıb. Bu siyasət ölkəmizdə minimum əməkhaqqının ehtiyac meyarına çatdırılması, aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımının yaşayış minimumuna uyğunlaşdırılması ilə bağlı sistemli tədbirlərin nəticəsi sayıla bilər. Pensiyaların və minimum əməkhaqqının yenidən artımının baş verməsi halında ehtiyac meyarının gələn ildən bir daha yüksəldiləcəyi də realdır. Ümumiyyətlə, yeni iqtisadi dövrün reallıqlarına uyğun olaraq dövlət sosial siyasətin leytmotivi kimi ədalətli pensiya-sığorta sisteminin yaradılmasını, sosial bərabərlik prinsiplərinə əsaslanan mexanizmlərin təmin edilməsini başlıca məqsədləri hesab edir. Məhz bu sosial-iqtisadi inkişaf modelinin unikallığı onunla şərtlənir ki, ölkədə bazar iqtisadiyyatının inkişafı üçün atılan hər bir addım əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir, aztəminatlı təbəqənin mənafeyi ilə uzlaşdırılaraq həyata keçirilir.

Göründüyü kimi, əhalinin gəlirləri, aylıq əməkhaqqı və pensiya üzrə artım templəri dinamik xarakter daşıyır. Bu faktor makroiqtisadi sabitlik, sosial inkişaf baxımından mühüm nəticələr kimi səciyyələndirilə bilər. Sosial sistemin təkmilləşdirilməsi məqsədi ilə islahatlar ilbəil sürətlənir və bundan sonrakı illərdə daha da intensiv xarakter alacaq. Atılan addımlar və sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və vətəndaşların bütün sosial problemlərinin həlli üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.

## Mərkəzi Seçki Komissiyası İlham Əliyevin prezidentliyə namizədliyinin qeydə alınması barədə qərar qəbul etmişdir

Avqustun 25-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilmişdir. İclasda 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin qeydə alınmasına dair məsələyə baxılmışdır. Bu məsələ barədə məruzə edən MSK sədri bildirmişdir ki, 2013-cü il oktyabrın 9-da keçiriləcək prezident seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsi Mərkəzi Seçki Komissiyasının 10 avqust 2013-cü il tarixli 9/68 saylı qərarı ilə təsdiq edilmişdir. Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2013-cü il avqustun 20-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Komissiyaya təqdim edilmişdir. MSK qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Sonra MSK-nın nəzdindəki işçi qrupunun rəhbəri İlham Məmmədov Yeni Azərbaycan Partiyası tərəfindən təqdim olunmuş imza vərəqələrinin və digər sənədlərin yoxlanılmasının nəticələri barədə məlumat vermişdir. Məzahir Pənahov MSK üzvlərini bu məsələ barədə qərarın layihəsi ilə tanış etmişdir. Mərkəzi Seçki Komissiyası qərara almışdır ki, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyev 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizəd kimi qeydə alınsın.

## Fəxri adlara görə aylıq təqaüdlərin artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə və yüksək peşə ustalığına görə fəxri adlara layiq görülmüş şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə **qərara alıram:**

1. Fəxri adlara görə aylıq təqaüdlərin məbləği 2 dəfə artırılaraq «Xalq» fəxri adı üçün 100 (yüz) manat, «Əməkdar» fəxri adı üçün 60 (altmış) manat müəyyən edilsin.
2. «Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamının 1-ci hissəsində «250 min manat» və «150 min manat» sözləri müvafiq olaraq «100 manat» və «60 manat» sözləri ilə əvəz edilsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
4. Bu Sərəncam 2013-cü il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2013-cü il*

## «Prezident İlham Əliyevin seçilmiş nitqləri 2003-2013» kitabının təqdimatı keçirilmişdir

*Çinin paytaxtı Pekində çin dilində «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçilmiş nitqləri 2003-2013» adlı kitabının təqdimatı olmuşdur.*

Pekin Dünya Mədəniyyət Mərkəzində Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi və Azərbaycanın Çindəki səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə 100-dən çox qonaq, o cümlədən ÇXR-in rəsmi nümayəndəsi, elm xadimləri, iş adamları, yerli KİV rəhbərləri, Rusiya və Qırğızıstanın bu ölkədəki səfirləri, Türkiyə, Venesuela, Moldova və Ukraynanın diplomatları iştirak etmişlər.

Təqdimat mərasimində bildirilmişdir ki, kitab dövlətimizin başçısı İlham Əliyevin 2003-2013-cü illər ərzində uğurlu prezidentlik fəaliyyəti ilə yanaşı, Azərbaycanın müxtəlif sahələr üzrə əldə etdiyi nailiyyətlərə, onun dünya birliyinə inteqrasiyasına, ölkəmizin üzləşdiyi problemlərinə həsr olunmuşdur. Azərbaycanın ötən on il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında genişmiqyaslı inkişaf yolu keçmişdir. Həmin müddət ərzində ölkənin iqtisadi və siyasi potensialı artmış, əhalinin sosial vəziyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir. Təsadüfi deyildir ki, 2011-ci ildə dünya birliyi Azərbaycan Respublikasının namizədliyini dəstəkləyərək onu BMT-nin Təhlükəsizlik Şurasına üzv seçmişdir. Bundan başqa, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi Neft strategiyası Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyi məsələlərində fəal iştirakını göstərməklə, həm də regiondakı iqtisadi, siyasi mənzərəni dəyişmiş, inteqrasiya prosesini sürətləndirmişdir. Məsələn, on il ərzində Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi 48 milyard, dövlət büdcəsinin gəlirlərinin həcmi isə 25 milyard ABŞ dolları həddini ötmüşdür. Dünyanın 144 dövləti sırasında milli iqtisadiyyatın rəqabət qabiliyyəti göstəricilərinə görə ölkəmiz ilk 50, makroiqtisadi sabitliyə görə isə ilk 20 dövlət sırasında mövqeyini möhkəmləndirmişdir. Ötən on il ərzində ölkə iqtisadiyyatına 137 milyard ABŞ dolları məbləğində sərmayə qoyulmuş, dövlət büdcəsinin həcmi 19 dəfə artmışdır. İqtisadiyyatın və sosial sahələrin inkişafı üçün yönəldilən vəsaitin 49 faizini dövlət, 51 faizini isə qeyri-dövlət investisiyaları təşkil etmişdir. Qeyri-neft sektorunun inkişafına yönəldilmiş vəsaitin ümumi həcmi 11,1 dəfə artaraq təqribən 60 milyard dollar təşkil etmişdir. Hazırda iqtisadi fəal əhalinin sayı 7,2 faizə, məşğul əhalinin sayı isə 11,9 faizə yüksəlmiş, işsizliyin səviyyəsi 5 faizə enmişdir.

2 Vergi ödəyicilərinə göstərilən xidmətlər təkmilləşdirilir

3 Nağdsız ödənişlər stimullaşdırılır

4 Azərbaycanın strateji valyuta ehtiyatları 50 milyard dollara yaxındır

5 Azərbaycanın ticarət imkanları genişlənir

# Vergilər naziri Şirvanda vətəndaşları qəbul etmişdir



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.*

Növbəti belə qəbul Şirvan şəhərində vergilər naziri Fazil Məmmədov tərəfindən keçirilmişdir. Şirvan, Hacıqabul, Salyan, Neftçala, Sabirabad, Saatlı, Göyçay, Kürdəmir və Ucar rayonlarından olan 70-dən çox vətəndaş iqtisadiyyatın müxtəlif sahələri üzrə vergi dərəcələrini azaltmaqla stimullaşdırıcı tədbirlər barədə, vergi orqanlarına işə qəbul, vergi inzibatçılığı, vergi borclarının azaldılması, POS-terminalların quraşdırılması, nəzarət-kassa aparatlarının tətbiqi, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi və onları narahat edən digər məsələlərlə bağlı vergilər nazirinə müraciət etmişlər.

Qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, digərlərinin araşdırılması və lazımi tədbirlər görülməsi barədə müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildirmişlər.

# Beynəlxalq Antikorrupsiya Akademiyasında görüşlər

*IACA 2010-cu ildə BMT-nin Narkotiklərə və Cinayətkarlığa Qarşı Ofisi, Avstriya hökuməti və Dələduzluğa qarşı Avropa Ofisinin təşəbbüsü ilə təsis olunmuş, indiyə kimi 67 ölkə və təşkilat IACA-nın təsis sənədlərinə qoşulmuşdur. Akademiyanın Azərbaycanla fəal əməkdaşlığı yaranmışdır - IACA ilə ölkəmizin Vergilər Nazirliyi arasında 2012-ci ilin fevral ayında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.*

Vergilər nazirinin müşaviri Ə.Məmmədovun və Beynəlxalq münasibətlər idarəsinin rəisi M.Kərimlinin daxil olduğu nümayəndə heyətinin səfəri zamanı IACA ekspertlərinin iştirakı ilə beynəxalq standartlara cavab verən korrupsiya ilə mübarizə sahəsində tədris modulunun hazırlanması, həmin modul əsasında vergi əməkdaşları üçün kursun təşkil olunması, IACA-nın təlim metodlarının öyrənilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində müsbət təcrübələri və s. ilə bağlı müzakirələr keçirilmişdir. IACA-nın təlim modullarının hazırlanması məqsədilə hər iki tərəfdən əlaqələndirici şəxslərin müəyyən edilməsi, eləcə də Azərbaycan tərəfinin təlim ehtiyacları barədə məlumatın təqdim olunması və ekspertlər arasında yazışma yolu ilə modulun hazırlanması barədə razılığa gəlinmişdir.

Vergilər Nazirliyinin nümayəndə heyəti Avstriya Federal Maliyyə Akademiyasının direktoru Karl Vappel ilə də görüşmüşdür. Görüşdə Akademiya ilə gələcək əməkdaşlığın perspektivləri müzakirə olunmuş, Vergilər Nazirliyinin Tədris Mərkəzi ilə Avstriya Federal Maliyyə Akademiyası arasında mümkün əməkdaşlıq memorandumunun ilkin layihəsi baxılması üçün Avstriya tərəfinə təqdim edilmişdir.

# Vətəndaşlar «E-hökumət» vasitəsilə onlayn növbə tutacaqlar

«ASAN xidmət» Mərkəzi «Elektron hökumət» portalı vasitəsilə «Onlayn növbə» adlı elektron xidmətini təqdim etmişdir. Bu xidmətdən istifadə etməklə vətəndaşlar əlavə vaxt itkisinə yol vermədən «ASAN xidmət» mərkəzlərində göstərilən xidmətlərdən istifadə məqsədi ilə onlayn növbə tuta biləcəklər.

Onlayn növbə tutmaq üçün hər bir şəxs portalda tələb olunan məlumatları doldurmaqla (şəxsi məlumatlar, xidmətin seçilməsi, növbə tarixinin və vaxtının seçilməsi) xidmətdən rahat yararlana biləcək.




## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Ölkənin sənaye sahələrində çalışan muzdlu işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə **5,1%** artaraq **178,8 min** nəfər, onların orta aylıq əmək haqqı isə **8%** yüksələrək **638,7 manat** təşkil etmişdir.
- Bu ilin 7 ayı ərzində Azərbaycanın iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala **8 milyard 800 milyon manat** vəsait yönəldilmiş, onun **66,3%**-i tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.
- Azərbaycanın sənaye sahələrində 2013-cü ilin yanvar-iyul aylarında **19,6 milyard manatlıq** məhsul istehsal olunmuş, xidmətlər göstərilmişdir.
- Azərbaycan əhalisinin **70%**-i internet, **50%**-i isə genişzolaqlı xidmət istifadəçisidir.
- Cari ildə inşasının davam etdirilməsi məqsədəuyğun sayılan obyektlərdə işlərin aparılması üçün dövlət büdcəsində nəzərdə tutulmuş **7055,2 milyon manat** vəsaitin **3958,2 milyon manatından** istifadə edilmişdir.
- Qeyri-neft məhsullarının ixracı altı ay ərzində sabit qiymətlərlə **13,5%** artmışdır.
- 2013-cü il iyul ayının 1-nə əhalinin banklardakı əmanətlərinin qalığı **5922,2 milyon manat** təşkil edərək əvvəlki ilin eyni dövrü ilə müqayisədə **35,4%** artmışdır.

Azərbaycanın vergi sistemi: 2003-2013

# Vergi ödəyicilərinə göstərilən xidmətlər təkmilləşdirilir

*Vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin yüksəldilməsi Vergilər Nazirliyinin fəaliyyətində mühüm yer tutur. 2003-2013-cü illərdə bu məqsədlə keçirilmiş tədbirlər sistemli və ardıcıl səciyyə daşıması ilə diqqəti çəkir.*

Vergi mədəniyyətinin formalaşdırılması və vergi ödəyicilərinin məlumatlandırılması baxımından kütləvi informasiya vasitələrinin mühüm rolu nəzərə alınmaqla, 2000-ci ildən «Vergilər» qəzeti, 2003-cü ildən isə «Azərbaycanın vergi xəbərləri» (hazırda «Azərbaycanın vergi jurnalı») jurnalı dərc edilir.

Ötən illərdə gənc nəslin vergi biliklərinin yüksəldilməsi məqsədilə müxtəlif vəsaitlərin, o cümlədən dərslik və dərs vəsaitlərinin hazırlanmasına ciddi diqqət yetirilmişdir. Gənc nəslin vergilər haqqında bilgilərinin artırılması məqsədilə ümumtəhsil məktəblərinin şagirdləri üçün üç dərs vəsaiti, habelə ali məktəb tələbələri üçün bir neçə dərslik nəşr edilərək ödənişsiz paylanılmışdır. 2013-cü ildə Azərbaycanda ilk dəfə «Vergi Ensiklopediyası»nın nəşrini də xüsusi qeyd etmək olar.

Azərbaycan Dövlət İqtisad Universiteti (ADİU) ilə əməkdaşlıq çərçivəsində 2001-ci ildə «Vergi və vergiqoyma» kafedrasının yaradılması vergilər sahəsində ixtisaslı kadrların hazırlanması baxımından səmərəli nəticələr vermişdir. Vergi maarifləndirilməsi prosesinin mühüm tərkib hissəsi kimi ADİU-da Bakı və respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən ali məktəblərin tələbə və magistrantları arasında «Vergilər» mövzusunda olimpiadalar keçirilir. 2006-cı ildən bəri tələbə və magistrantlar arasında 7 olimpiada təşkil edilmiş və qaliblər mükafatlandırılmışdır.

Vergilər Nazirliyi 2002-ci ildə Azərbaycan, rus və ingilis dillərində rəsmi internet səhifəsini (www.taxes.gov.az) yaratmış ilk dövlət qurumlarından biri olmuşdur. Digər mühüm yenilik 2003-cü ildə «195» Telefon-məlumat xidmətinin yaradılması olmuşdur. 2009-cu ilin sentyabr ayından etibarən İqtisadi İnkişaf Nazirliyinin də bu xidmətə qoşulması onun səmərəliliyini artırmışdır.

2011-ci ildə «Beynəlxalq Sertifikatlaşdırma və Sorğu Mərkəzləri İnstitutu» tərəfindən keçirilmiş auditin nəticəsinə əsasən, Vergilər Nazirliyinin Çağrı Mərkəzinə Standartlaşma üzrə Avropa Komissiyası tərəfindən xüsusi keyfiyyət sertifikatı verilmişdir. Fəaliyyətə başladığı dövrdən Telefon-məlumat xidmətinə 2,2 milyondan çox müraciət daxil olmuş, bunlardan 33,6%-i canlı rejimdə cavablandırılmışdır. Bundan başqa, 2010-cu ildən Çağrı Mərkəzində «Mesaj xidməti» vasitəsilə daxil olmuş müraciətlərin cavablandırılmasına başlanılmışdır.

Uşaq və yeniyetmələrdə vergilərdə dair ilkin təsəvvürlərin formalaşdırılması və onların bu sahədə biliklərinin dərinləşdirilməsi məqsədilə 2003-cü ildən başlayaraq hər il Uşaq-Gənclər Yaradıcılıq Sarayının «Uşaq dünyası» qalereyasında 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Gününə həsr olunmuş «Vergi uşaqların gözü ilə» adlı rəsm və inşa müsabiqələri keçirilir. Həmin dövrdən 11 rəsm və inşa müsabiqəsi keçirilərək qaliblər mükafatlandırılmışdır.

Vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə vergi ödəyiciləri üçün xidmət mərkəzləri yaradılmışdır. 2007-ci ildən bəri Vergilər Nazirliyi tərəfindən əsasən regionlarda, xüsusilə də vergi orqanı olmayan iri şəhər və rayonlarda 40 mərkəz istifadəyə verilmiş, onlar müasir kompüter və kompüter avadanlıqları, sürətli kommunikasiya sistemi ilə təchiz edilmişdir. Xidmət mərkəzlərinin fəaliyyəti vergi orqanları tərəfindən həyata keçirilən yoxlama-nəzarət, təhlil və təhqiqat, məcburi alınma prosesləri istisna olunmaqla, vergi ödəyicilərinə göstərilən xidmətlərin bütün spektrini əhatə edir. Bu xidmətlərə vergi qanunvericiliyinə dair sualların cavablandırılması; hesabat, ərizə, arayış və digər sənədlərin tərtibatı; elektron sənəd mübadiləsi və elektron imza (o cümlədən Asan İmza) üzrə xidmətlərin göstərilməsi; fiziki şəxslərin real vaxt rejimində (onlayn) qeydiyyatı; nəzarət-kassa aparatlarının onlayn qeydiyyata alınması və qeydiyyatdan çıxarılması; təsərrüfat subyektlərinin onlayn qeydiyyatdan çıxarılması; vergi və rüsumların, cərimələrin elektron formada ödənilməsi; POS-terminalların quraşdırılması və onlardan istifadə qaydalarının izahı; yazılı və eləcə də telefonla edilmiş müraciətlərin cavablandırılması və s. məsələlər daxildir. Xidmətlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə mərkəzlərin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) inteqrasiyasına başlanılmışdır.

«Vergi dostları» layihəsi çərçivəsində ucqar kənd və qəsəbələrdən seçilmiş müəllimlər vergilərin təbliğində, əhalinin, vergi ödəyicilərinin məlumatlandırılmasında və maarifləndirilməsində vergi əməkdaşlarına kömək göstərirlər. Vergilər Nazirliyi isə bu işdə onlara metodiki dəstək göstərir, elektron vasitələrdən istifadə imkanları yaratmaqla vergi təbliğatı işini səmərəli qurmağa çalışır.

Beynəlxalq və ictimai təşkilatlarla əməkdaşlığın mühüm formatlarından biri kimi geniş ictimai müzakirələrin təşkilinə də diqqət yetirilmişdir. Bu məqsədlə 2012 və 2013-cü illərdə dövlət orqanlarının, beynəlxalq təşkilatların, eyni zamanda ictimai birliklərin və vergi ödəyicilərinin müəyyən qrupunun iştirakı ilə «Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda Vergi Forumu keçirilmişdir.

***Hazırladı:***
**Samir MUSTAFAYEV**

bir maktubun izi ila

# Əsassız iddia təmin edilmədi

***Vergilər Nazirliyi ictimaiyyətə açıq dövlət qurumlarındandır və nazirliyə hər gün müxtəlif səpkili müraciətlər daxil olur. Hər bir müraciətə nazirliyin yuxarı instansiyalarında qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılır, vergi ödəyicilərinin hüquqi mənafelərinin təmin olunmasına həssaslıqla yanaşılır. Lakin aparılan araşdırmalar barələrində çıxarılmış qərarların dəyişdirilməsini istəyən vergi ödəyicilərinin əksər hallarda qanunvericiliyin tələblərini kobud surətdə pozması faktlarını üzə çıxarır…***

«Fodla» Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) tərəfindən nazirliyə ünvanlanmış 21 iyun 2013-cü il tarixli şikayətdə əlavə dəyər vergisi üzrə şirkətə kameral qaydada hesablanmış 2578,43 manat vergi məbləğinin əsassız olduğu bildirilmiş, bu məbləğin azaldılması xahiş edilmişdi.

Uçot baza məlumatları əsasında məlum olub ki, vergi ödəyicisi 2006-cı il 1 avqust tarixindən restoranlara müxtəlif xidmətlərin göstərilməsi, habelə sifarişçilərə yeməklərin çatdırılması üzrə fəaliyyətə başlayıb. Bəyannamələrin kameral yoxlanılması şöbəsinin araşdırmaları əsasında bu da müəyyən edilib ki, vergi ödəyicisi 2009-cu il martın 11-dən fəaliyyətini formal olaraq dayandırsa da, xidmətlər göstərməyə davam edib. «Fodla» MMC 2011-ci il fevralın 11-dən mayın 9-dək «Azərbaycan Kola-kola Bottlers Limited» MMC-dən 16.894,16 manat məbləğində mal alsa da, həmin ilin fevral, mart, aprel, may, iyun, iyul, avqust və sentyabr ayları üzrə əlavə dəyər vergisi bəyannamələrini vergiyə cəlb edilən dövriyyə olmadan təqdim edib. Bununla bağlı vergi ödəyicisinə 2011-ci il 16 dekabr tarixində müvafiq uyğunsuzluq məktubu göndərilib və izahat istənilib.

Vergi ödəyicisi qanunvericiliklə müəyyən edilmiş müddətdə vergi orqanına uyğunsuzluqla bağlı izahat məktubu ilə müraciət edib, lakin izahat əsassız sayılıb. Nəticədə vergi ödəyicisinə əlavə dəyər vergisi üzrə kameral qaydada 2.578,43 manat əlavə vergi məbləği hesablanıb.

Müraciətin ətraflı araşdırılması üçün vergi ödəyicisi nazirliyə dəvət edilib. Lakin vergi ödəyicisinin nümayəndəsi heç bir üzrlü səbəb göstərilmədən görüşə gəlməyib. Araşdırma zamanı «Azərbaycan Koka-Kola Bottlers Limited» MMC-nin təqdim etdiyi elektron vergi hesab-fakturalarına əsasən aşkar olunub ki, vergi ödəyicisi müxtəlif adda mallar (sərinləşdirici içkilər) əldə edib. Lakin bu barədə məlumatlar mənfəət vergisi bəyannaməsinin əlavəsində göstərilməyib. Eyni zamanda, uçot baza məlumatlarına əsasən, «Fodla» Məhdud Məsuliyyətli Cəmiyyətinin adına aktiv təsərrüfat subyekti (obyekti) qeydiyyata alınmayıb.

Nazirlər Kabinetinin 28 sentyabr 2009-cu il tarixli qərarı ilə təsdiq edilmiş «Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları»na əsasən, elektron vergi hesab-fakturasının ləğvi fakturanı təqdim edən vergi ödəyicisi (satıcı) tərəfindən aparılır. Elektron vergi hesab-fakturası ləğv edildikdən sonra alıcının «e-qutu»suna bu barədə məlumat göndərilir. Məlumat göndərildikdən sonra elektron vergi hesab-fakturası üzərində düzəliş aparıla bilməz. Həmin hesab-faktura ləğv olunmalı və yenisi yaradılmalıdır. Bu halda alıcı vergi ödəyicisinə (satıcıya) müraciət edərək təqdim olunmuş vergi hesab-fakturasının ləğvini xahiş edə bilər. Ləğvetmə vergi ödəyicisi (satıcı) tərəfindən həyata keçirilir. Bu baxımdan, vergi ödəyicisi tərəfindən elektron vergi hesab-fakturalarının ləğvi və ya dəqiqləşdirilməsi ilə bağlı hər hansı tədbirin görülməsi müəyyən edilməyib.

Vergi Məcəlləsinin 37.3-cü maddəsinə əsasən, kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim olunmuş bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər. Vergi Məcəlləsinin 94.0.2-ci maddəsinə əsasən, vergi orqanının hesablamalarının səhv olduğunu sübut etmək vəzifəsi vergi ödəyicisinin üzərinə düşür.

Bu və digər hallar nəzərə alınmaqla, «Fodla» Məhdud Məsuliyyətli Cəmiyyətinin kameral qaydada hesablanmış 2.578,43 manat vergi məbləğinin ləğvi barədə inzibati şikayəti əsassız sayılıb.

**S.MUSTAFAYEV**

# Nağdsız ödənişlər stimullaşdırılır

## Bankların keçirdiyi kampaniyalar nağdsız əməliyyatların həcminin artmasına şərait yaradır

*Mərkəzi Bank (MB) 2013-cü ilin əvvəlindən bəri ölkənin kart bazarında inkişaf tendensiyasının baş verdiyini, nağdsız ödənişlərin həcmində mühüm dinamikanın müşahidə olunduğunu bildirib.*

Kommersiya banklarını ölkədə nağdsız hesablaşmaların həcmini artırmağa, elektron ödəniş xidmətlərindən istifadənin əhatə dairəsinin genişləndirilməsini təşviq etməyə yönəldilmiş stimullaşdırıcı tədbirlər bankların kart biznesinə marağını gücləndirir. «Nağdsız ödənişlər üzrə lider bank» və «Elektron bankçılıq xidmətlərində lider bank» nominasiyaları üzrə keçirilən kampaniya bankların son yarım ildə ölkədə elektron bankçılığın irəliləyişinə təkan verib. Bu cür tədbirlər bankların nağdsız ödənişlər bazarında fəallığının artmasına güclü zəmin yaradır.

Bunun nəticəsidir ki, banklar 2013-cü ilin əvvəllərindən başlayaraq yeni kart məhsullarının buraxılması və xidmətlərin hazırlanması işini sürətləndirib, vətəndaşların və ticarət şəbəkələrinin kartlardan istifadəyə marağının artmasını stimullaşdırmaq üçün yeni layihələr həyata keçirməyə başlayıb. Eyni zamanda, bankların bir çoxu artıq öz prosessinq mərkəzini yaradıb. Bankların böyük qismi ötən aylar ərzində yeni adda plastik kartlar buraxıb. Bu layihələrin əsas üstünlüyü ticarət obyektləri ilə vətəndaşlar arasında təmasları gücləndirməkdir. Bir çox güzəştləri nəzərdə tutan və il ərzində aparılan kampaniyanın başlıca məqsədi vətəndaşları kartlar vasitəsilə daha çox ticarət əməliyyatları həyata keçirməyə təşviq etməkdir. Kartlar müştərilərin ucuz qiymətə məhsul almasını təmin edir, onların bazarlara getmədən yaxınlıqdakı iri supermarketlərdən, mağazalardan rahat və asan alış-veriş etməsinə imkan verir. Digər tərəfdən, bankların partnyoru olduğu ticarət şəbəkələrinin müştərilərinin sayı əhəmiyyətli dərəcədə artır, onların aylıq dövriyyəsi yüksəlir. Burada əsas etibarilə nağdsız əməliyyatların həcmi artır ki, bu da Vergilər Nazirliyinin, Mərkəzi Bankın, ölkə banklarının və digər strukturların nağdsız iqtisadiyyatın qurulması ilə bağlı strateji məqsədlərinə xidmət edir.

Ölkə banklarının əksəriyyəti kart sahiblərini iri ticarət obyektlərindən alış-verişə həvəsləndirmək üçün uduş kampaniyalarına üstünlük verir.




«Nağdsız ödə, nağd qazan», «Uduşlu pul köçürmələri», «Bonus», «Kartla ödə, Apple qazan!», «Heyrətləndirici dünya!», «Kreditinizi ödəyin və qazanın» və digər kampaniyalar çərçivəsində hər rüb müştərilərə uduş kimi noutbuk, planşet və mobil telefonlar hədiyyə verilir ki, bu da onların növbəti kartlar əldə etməyə maraqlarını artırır.

Ticarət məntəqələrində kartla ödənişi stimullaşdırmaq üçün əsas xidmətlərdən biri də elektron ticarətdir. Bu xidmətə qoşulan istifadəçilər onlara lazım olan məhsul və xidmətləri yerli elektron ticarət məntəqələrindən əldə edir, eyni zamanda kart sahibləri kommunal, rabitə, mobil rabitə və digər xidmətlərə görə haqları təkcə bankomatdan istifadə etməklə deyil, həm də internet vasitəsilə ödəyə bilirlər. İnternet bankçılıq, mobil bank, bankomatlar şəbəkəsi və digər kanallar vasitəsilə də nağdsız ödənişlər bazarı genişləndirilib, əhaliyə göstərilən elektron xidmətlərin çeşidi artıb.

Artıq Azərbaycan müştərilərinə dünyanın ən nüfuzlu ticarət mərkəzlərindən endirimlə mal əldə etmək imkanı da yaradılıb. Bu layihənin müəllifi olan Beynəlxalq Bank (BB) xarici maliyyə-kredit təşkilatlarına üzv seçilərək istifadəçilərə inkişaf etmiş ölkələrin tanınmış brendlərini güzəştlə almalarını təmin edir. Bankın «Premium» kartlarının sahibi olan şəxslər dünya miqyasında endirimlərlə təklif olunan malları qısa müddət ərzində ala bilirlər. Onu da qeyd edək ki, BB cari ildə daxili bazarda yerli ticarət obyektlərindən mal alan müştərilərə edilən güzəştlərin əhatəsini də genişləndirib. Məsələn, «Bonus» layihəsinə əsasən, müştərilər bonus işarəsi olan ticarət və xidmət müəssisələrində alış-veriş zamanı bonus balı qazanır, istədiyi zaman «Bonus Club» şəbəkəsinə daxil olan bütün ticarət və xidmət müəssisələrində xərcləyir. Bir çox ticarət məntəqəsində tətbiq olunan bu xidmət VISA kart sahiblərinə kartla ödəniş apararkən hər biri bir manata bərabər bonuslar əldə etmək imkanı yaradır. Yəni kart sahiblərinə həm güzəştlər edilir, həm də əlavə mal verilir.

Ölkədə bank və maliyyə xidmətləri göstərmək üçün Mərkəzi Bankın lisenziyasını almış «Azərpoçt» MMC də nağdsız ödənişlərin stimullaşdırılması ilə bağlı hazırladığı tədbirlər planına uyğun olaraq, 2013-cü ildən başlayaraq bir sıra layihələr həyata keçirməkdədir. MMC-nin baş direktor müavini Rəsul Bayramovun sözlərinə görə, təşkilat «MasterCard» və «VISA» şirkətləri ilə birgə layihə çərçivəsində korporativ müştərilərlə yanaşı, fiziki şəxslərə xidmət göstərir, sonuncu qrup müştərilərə bəzi güzəştlər tətbiq edir. Biznes subyektlərini öz müştərisinə çevirən MMC nağdsız hesablaşmaların həcmini artırmaq məqsədilə regionlarda POS-terminalların və ATM-lərin sayını, plastik kartların buraxılışını artırmaqdadır. Əsas stimullaşdırıcı addımlardan biri ticarət qurumları ilə intensiv əməliyyatlar aparan, internet vasitəsilə ödənişləri həyata keçirən müştərilərə 5% güzəştin tətbiq olunmasıdır.

Ekspert Vüqar Bayramov hesab edir ki, bank kartları vasitəsilə həyata keçirilən bu cür stimullaşdırıcı kampaniyalar ticarət obyektlərinin də marağının artmasına səbəb olur, bir sıra mağaza, iri ticarət məntəqəsi bu layihələrə qoşulmağı arzu edir. Nəticədə yeni ticarət obyektlərinin bu prosesə cəlb edilməsi bankların ekvayerinq şəbəkəsinin genişləndirilməsinə, nağdsız əməliyyatların həcminin əhəmiyyətli dərəcədə artmasına imkan yaradır. Son bir ildə bankların ödəniş kartları üzrə dövriyyəsində böyük dinamikanın yaranması da bunun real nəticəsi hesab oluna bilər.

**Elbrus CƏFƏRLİ**

# Sosial yönümlü tədbirlər əhalinin gəlirlərinin dinamik artımını təmin edir

*Azərbaycanda biznesə başlama prosedurlarının sadələşdirilməsi, bu sahədə elektron xidmətlərin davamlı şəkildə təkmilləşdirilməsi, eləcə də stimullaşdırıcı səciyyə daşıyan vergi güzəştləri sahibkarlıq subyektlərinin sayının dinamik artımına və yüksək məvacibli yeni iş yerlərinin yaradılmasına geniş imkanlar açır.*

2013-cü ilin yanvar-iyul aylarında respublikada 45 mindən çox fiziki və hüquqi şəxsin qeydiyyatdan keçməsi, ümumilikdə vergi ödəyicilərinin sayının 521 minə yüksəlməsi ölkədə işsizlik probleminin həlli ilə yanaşı, əhalinin gəlirlərinin strukturuna da müsbət təsir göstərir.

Büdcə gəlirlərinin dinamik artım tempi hökumətə insan amilinin yüksəlişinə, sosial-mədəni tərəqqiyə xidmət edən islahatları sürətləndirmək və «sosial dövlət» modelini praktik surətdə gerçəkləşdirmək imkanı yaradır. Bir sıra beynəlxalq maliyyə qurumlarının, o cümlədən MDB Statistika Komitəsinin hesabatlarında Azərbaycanın əhali gəlirlərinin və əməkhaqqının artım səviyyəsinə görə postsovet məkanında öncül yer tutması faktı bunu aydın təsdiq edir. Bir sıra Avropa ölkələrinin hələ də böhrandan çıxa bilmədiyi, sosial və investisiya yönümlü xərcləri ixtisara saldığı bir zamanda Azərbaycan nəinki dinamik inkişaf edir, həm də əhalinin maddi rifah halının yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirir.

Prezident İlham Əliyevin son günlər imzaladığı sərəncamlarla büdcədən maliyyələşən bir sıra dövlət qurumlarında işləyənlərin, ümumilikdə, 85 minə yaxın vətəndaşın əməkhaqqının orta hesabla 10% artırılması da, ilk növbədə, hökumətin sosial yönümlü siyasətə sadiqliyini nümayiş etdirir. Qarşıdakı günlərdə büdcədən maliyyələşən digər strukturlarda çalışanların, o cümlədən təhsil və səhiyyə işçilərinin də məvaciblərinin artırılması gözlənilir. Bütün bunlar təsdiqləyir ki, ölkədə bazar iqtisadiyyatı prinsiplərinin özünə möhkəm dayaqlar tapması, iqtisadiyyatın liberallaşdırılması tədbirləri sosial himayəyə ehtiyacı olan vətəndaşların maraqları ilə qətiyyən ziddiyyətə girmir. Əksinə, dinamik şəkildə artan büdcə gəlirləri, ilk növbədə, insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir.

Dünya Bankının hesabatında milli gəlirin ədalətli bölgüsünə görə Azərbaycan 110 inkişaf edən ölkəni geridə qoyur. Bankın hesabatına görə, Azərbaycan dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluğa malik 20 ölkədən biridir.

*Ötən ilin yeddi ayına nisbətən pərakəndə ticarət dövriyyəsi 9,2% artaraq 10,7 milyard manata, pullu xidmətlərin həcmi isə 6,8% çoxalaraq 3,3 milyard manata çatıb*

**Əhalinin gəlirləri nəyə sərf olunur**




2013-ci ildə də sosial məsələlərin xüsusi diqqət mərkəzində olması respublikamızın dinamik inkişaf tempi ilə şərtlənir. Yanvar-iyul aylarında ümumi daxili məhsulun 5%-lik artımı, eləcə də büdcə proqnozlarının icra vəziyyəti əvvəlcədən nəzərdə tutulmuş tədbirlərin reallaşdırılmasına imkan yaradır. Həyata keçirilən tədbirlərin nəticəsində 2013-cü ilin yanvar-iyul aylarında əhalinin gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,2% artaraq 18,9 milyard manata, adambaşına düşən gəlirlər isə 5,8% artaraq 2040,8 manata (orta hesabla ayda 291,5 manata) çatıb. Gəlirlərin 68,9%-i son istehlaka, 9,3%-i vergilərin, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 20,2%-i isə əmanətlərin və kapitalın artırılmasına sərf edilib. Əhalinin sərəncamında qalan gəlirlər 17,2 milyard manat təşkil edərək əvvəlki ilin eyni dövrünə nisbətən 7,2% artıb.

Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı yanvar-iyul aylarında 6,8% artaraq 410,8 manata çatıb. Sənaye, tikinti, nəqliyyat və s. sahələrdə işləyənlərin əməkhaqqı daha yüksək olub. Yanvar-iyun ayları ərzində sənayedə çalışanların orta aylıq əməkhaqqı 638,7 manat, tikinti kompleksində 605 manat, nəqliyyatda 523,3 manat, rabitədə isə 665,9 manat təşkil edib.

Əhalinin gəlirlərinin artması onların ticarət şəbəkəsindən daha çox istehlak malları almasına və xidmətlərdən daha geniş istifadəsinə şərait yaradıb. Bunun nəticəsi olaraq ötən ilin yeddi ayına nisbətən pərakəndə ticarət dövriyyəsi 9,2% artaraq 10,7 milyard manata, pullu xidmətlərin həcmi isə 6,8% çoxalaraq 3,3 milyard manata çatıb.

Əhalinin gəlirlərinin dinamik artımı hökuməti qarşıya qoyduğu daha bir mühüm hədəfə yaxınlaşdırmaqla həyat keyfiyyətinin Avropa Sosial Xartiyasının tələblərinə uyğunlaşdırmağa imkan verir.

**Samir MUSTAFAYEV**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

# İqtisadi eksternallar və vergitutma

Hər bir iqtisadi fəaliyyət ətraf mühitə müxtəlif xarakterli təsirlər göstərir. Məsələn, hər hansı bir şəhərdə fəaliyyət göstərən kağız kombinatı və onların tullantıları ətraf mühiti mənfi təsirə məruz qoyur. Lakin bir şəhərə və kəndə çəkilən yol onun sakinlərinə müsbət təsir göstərir, bundan da hər kəs yararlanır. Bir tərəfin digər tərəf üzərində idarəolunmaz təsirlərinə (müsbət və ya mənfi) eksternallar deyilir. Bir tərəfin fəaliyyəti digər tərəfin əlavə xərclərinin yaranmasına və onun ümumi vəziyyətinin pisləşməsinə səbəb olursa, bu, neqativ eksternallar və ya əksinə, bir tərəfin fəaliyyəti digər tərəfə səmərə verir və onun ümumi vəziyyətini yaxşılaşdırırsa, bu, müsbət eksternallar adlanır. İlk dəfə məşhur iqtisadçı Artur Piqu vergitutma vasitəsilə neqativ eksternalların qarşısının alınması fikrini irəli sürmüşdür. Hazırda elmi ədəbiyyatda bu növ vergilər «Piqu vergisi» adlanır. Piqu göstərmişdir ki, vergi vasitəsilə malların qiymətlərinə təsir göstərmək yolu ilə resursların səmərəli bölüşdürülməsinə nail olmaq mümkündür.

Piqu vergisi elmi ədəbiyyatlarda, əsasən, nəzəri anlayış kimi verilmişdir. Praktikada isə tullantılara görə verginin tutulması iki üsuldan birini tətbiq etməklə həyata keçirilir:

- fəaliyyətindən asılı olaraq vergi yükünün təyin edilməsi;
- müəyyən ekoloji normativlərin tətbiq edilməsi qaydası ilə.

Tullantıların həcminə və keyfiyyətinə görə real ödəniş sistemi ətraf mühitə zərər yetirənlərə stimul verir ki, həmin zərərləri azaltsınlar. Bu mənada, Piqu yanaşması inkişaf etmiş ölkələrdə müasir ekoloji siyasətin prinsiplərini təşkil edir. Lakin Qərb iqtisadçıları real vergi dərəcələrinin effektiv dərəcələrdən aşağı olduğunu bildirirlər.

Piqu vergiləri şirkətlərin elastiklik nümayiş etdirərək ya vergiləri ödəmək, ya da tullantıları azaltmaq seçimlərini etməyi təklif edir. Dəqiq qoyulmuş vergilər texnoloji tərəqqini stimullaşdırır (ekoloji texnoloji proseslərin tətbiqi) və ekoloji sosial xərcləri minimumlaşdırır. Piqu vergisi vasitəsilə eksternalların tam neytrallaşdırılması o zaman mümkün ola bilər ki, nəzarətedici orqanlar ətrafa dəyən zərər nəticəsində yaranan eksternalların həcmi, ayrı-ayrı tullantı mənbələrinin xərcləri barədə məlumatlara malik olsunlar. Lakin verginin hesablanması üçün tələb olunan məlumatların həcmi olduqca çoxdur və adətən, nəzarətedici orqan bu məlumatlara sahib olmaqda çətinliklərlə üzləşir. Ekoloji problemlərin həlli istiqamətində eksternalların təsirini azaltmaq üçün müxtəlif növ eksternallar araşdırılmalıdır.

*Vergi siyasəti vasitəsi ilə xarici eksternalların təsirinin azaldılması bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsinin müasir mexanizmidir*

Ümumiyyətlə, eksternalların müxtəlif növləri mövcuddur: temporal, qlobal, sektorlararası, regionlararası və s.

*Temporal eksternallar* - davamlı inkişaf konsepsiyası ilə bağlıdır. Müasir nəsil öz tələbatlarını gələcək nəsillərin imkanlarının azaldılması hesabına ödəməməlidir. Bu tip eksternallar qlobal problemlər, bərpa olunmayan resursların tükənməsi, ətraf mühitin çirkləndirilməsi və s. neqativ eksternallar yaradır. Hazırkı cəmiyyət gələcək nəsillər üçün çox böyük iqtisadi, sosial və ekoloji problemlər yaradaraq onların öz tələbatlarını ödəmək imkanlarını məhdudlaşdırır. Burada əsas iqtisadi məqam ondan ibarətdir ki, antropogen inkişafdan irəli gələrək müasir nəsil əlavə eksternal xərcləri gələcək zamana yubadır.

Texnoloji nəaliyyətlər, elmi-texniki islahatlar gələcəkdə xərclərin azaldılmasına imkanlar yaradır. Misal üçün, enerjinin daha ucuz üsulla istehsalı (günəş, külək enerjisi və s.) gələcəkdə əhəmiyyətli səmərə verəcəkdir.

*Qlobal eksternallar* - adından göründüyü kimi, qlobal səviyyədə ölkələrarası sərhədləri aşaraq bütün ölkələri təsir dairəsinə alır. Ətraf mühiti daha çox çirkləndirən və təbii resursları daha çox istehlak edən, əsasən sənaye cəhətdən inkişaf etmiş ölkələrdir. Bu ölkələr kimyəvi birləşmələrin atmosferə buraxılması, çayların çirkləndirilməsi və digər ekoloji problemlərə səbəb olaraq digər ölkələr üçün əhəmiyyətli dərəcədə ekoloji-iqtisadi problemlər və əlavə xərclər yaradır. Nəticədə, inkişafdan geri qalmış ölkələr bu neqativ eksternallardan daha çox əziyyət çəkmiş olurlar.

*Sektorlararası eksternallar* - bir sektorun inkişafı digər sektorun da inkişafına əhəmiyyətli dərəcədə effektli iqtisadi təsir göstərə bilər. Misal üçün, məhsulun yenidən işlənməsi hesabına emaledici sənayenin inkişafı ilkin təbii resursların istismarının azaldılmasına imkan verir.

*Regionlararası eksternallar* - yalnız bir ölkə çərçivəsində qlobal eksternalların kiçildilmiş formasıdır. Məsələn, Kür çayının yuxarı hissəsində çaya atılan tullantılar «aşağı» regionlarda da suyun təmizlənməsinə əlavə xərclər tələb edir.

Vergi siyasəti vasitəsi ilə xarici eksternalların təsirinin azaldılması bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsinin müasir mexanizmidir. Bu mexanizmlər bilavasitə bazar iqtisadiyyatının qanunları əsasında formalaşmır. Ona görə də dövlət bu prosesləri vergi siyasəti vasitəsi ilə tənzimləməlidir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Aksiz markaları

### Aksizli mallara aksiz markalarının tətbiq olunması üçün hansı şərtlərə əməl edilməlidir?

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 182.1-ci maddəsinə əsasən, aksiz - aksizli malların satış qiymətinə daxil edilən vergidir. Həmin maddənin 2-ci bəndinə müvafiq olaraq, Azərbaycan Respublikasının ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan, vergidən azad edilən mallar istisna olmaqla, aksiz tutulur.

Nazirlər Kabinetinin «Aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Qaydaları»nın təsdiq edilməsi haqqında» 8 yanvar 2001-ci il tarixli 10 nömrəli qərarının 2.1-ci maddəsinə əsasən, Məcəllədə qeyd olunan aksizli mallardan içməli spirt, spirtli içkilərin bütün növləri, pivə və tütün məmulatları aksiz markaları ilə markalanmalıdır.

Qeyd olunan qərar ilə aksiz markalarına olan ümumi tələblər də müəyyən edilmişdir. Həmin tələblərə görə, markalanmalı olan mallara tətbiq edilən aksiz markalarının üzərində Azərbaycan Respublikasının simvolları, seriyası, sıra nömrəsi, təyinatı («daxili istehsal», «idxal» və yaxud «müsadirə»), növü («etil (yeyinti) spirti», «alkoqollu içkilər», «pivə», «tütün məmulatı») əks olunmalıdır.

Bundan əlavə, həmin qərarın 4.3-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində istehsal olunan markalanmalı mallara tətbiq edilən aksiz markaları bu malların istehsal olunduğu yerdə onların istehsalçıları tərəfindən yapışdırılır. Lakin Azərbaycan Respublikasının ərazisinə idxal olunan markalanmalı mallara (pivə istisna olmaqla) tətbiq edilən aksiz markaları isə qərarın 4.4-cü maddəsinə əsasən, həmin malların istehsalçıları və ya Azərbaycan Respublikasının hüdudlarından kənar onların satışında vasitəçilik fəaliyyətini həyata keçirən subyekt tərəfindən yapışdırılır.

Azərbaycan Respublikasının ərazisinə idxal olunan pivəyə tətbiq edilən aksiz markalarının yapışdırılmasının həmin qərarda fərqli qaydası nəzərdə tutulmuşdur. Belə ki qərarın 4.6-cı maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının ərazisinə idxal olunan pivəyə tətbiq edilən aksiz markaları Azərbaycan Respublikasının gömrük-buraxılış məntəqələrində həmin malı idxal edən şəxs tərəfindən gömrük orqanlarının əməkdaşlarının nəzarəti altında yapışdırılır. Qərarın 4.8-ci maddəsində nəzərdə tutulduğu kimi, aksiz markaları malın üzərinə yapışdırılarkən rekvizitləri aydın görünməli, əzilməsinə yol verilməməli və onların gələcəkdə malın üzərindən zədələnmədən ayrılması ehtimalı mümkün olmamalıdır.

Qərarın 5.1-ci maddəsində isə göstərilir ki, Azərbaycan Respublikasının ərazisində istehsal olunan və ölkə ərazisinə idxal edilən markalanmalı məhsulların aksiz markaları ilə markalanmamasına görə məsuliyyəti müvafiq olaraq daxili istehsalçılar və idxalçılar, həmin məhsulların aksiz markası olmadan satışına görə isə onları satan şəxslər daşıyırlar.

# Azərbaycanın strateji valyuta ehtiyatları 50 milyard dollara yaxındır

*Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun hesabatlarında bildirilir ki, Azərbaycan hökuməti strateji valyuta ehtiyatlarının idarə olunması istiqamətində çevik siyasət yürüdür. Bu siyasət dünyada maliyyə böhranının davam etdiyi dövrdə böyük valyuta ehtiyatlarına malik ölkə üçün böhranın hər hansı təsirini tamamilə məhdudlaşdırmaq iqtidarındadır.*

Son vaxtlar valyuta ehtiyatlarının artması ilə bərabər həm də milli valyutamızın - manatın aktiv pul aləti kimi nüfuzu artmışdır.

Azərbaycan hökuməti valyuta portfelindəki rezervlərin bir hissəsini dünya maliyyə strukturlarında yerləşdirərək beynəlxalq idarəetməyə vermişdir. Hazırda Mərkəzi Bankın valyuta ehtiyatlarının bir hissəsi, o cümlədən Dövlət Neft Fondu vəsaitlərinin böyük qismi dünyanın tanınmış maliyyə təşkilatlarında - Dünya Bankı, Doyçe Bank, Klarden Li və digər nüfuzlu maliyyə institutlarında idarəetməyə verilib və nəticədə bundan hər il milyonlarla gəlir əldə olunur. Hökumətin həyata keçirdiyi siyasət nəticəsində strateji valyuta ehtiyatlarının artmasında və ölkəmizin maliyyə imkanlarının yaxşılaşmasında vəsaitlərin idarə olunması ən perspektivli və yüksək gəlir gətirən sahəyə çevrilib. Azərbaycan hökuməti bəyan etmişdir ki, yaxın illərdə xarici təşkilatlarda idarəetməyə verilən valyuta ehtiyatlarından əldə olunan gəlirlər neft sektorundan sonra aparıcı yeri tutacaq. Proqnozlara görə, bir neçə ildən sonra ölkəmizin idarəetməyə verilən vəsaitlərdən milyard dollardan çox dividend əldə edəcəyi gözlənilir.

«İndi biz özümüz kreditlər veririk və bu, həm siyasi, həm də iqtisadi cəhətdən müsbət haldır. Biz öz pulumuzu müxtəlif alətlər vasitəsilə yerləşdiririk. Çalışmalıyıq ki, növbəti illərdə biz kreditlərin borcunu bir az da endirək. Halbuki biz bu borcu bir gündə də ödəyə bilərik». Dövlət başçısı İlham Əliyevin Nazirlər Kabinetinin iclasında səsləndirdiyi bu fikirləri statistik göstəricilər bir daha təsdiqləyir.

Cari ilin 6 ayında Azərbaycanın strateji valyuta ehtiyatları 1,6 milyard ABŞ dolları və ya 3,5% artaraq 47,7 milyard dollara bərabər olub ki, bu da təxminən 3 illik mal və xidmətlərin idxalına kifayət edir.

***«İndi biz özümüz kreditlər veririk və bu, həm siyasi, həm də iqtisadi cəhətdən müsbət haldır. Biz öz pulumuzu müxtəlif alətlər vasitəsilə yerləşdiririk. Çalışmalıyıq ki, növbəti illərdə biz kreditlərin borcunu bir az da endirək. Halbuki biz bu borcu bir gündə də ödəyə bilərik». Dövlət başçısı İlham Əliyevin Nazirlər Kabinetinin iclasında səsləndirdiyi bu fikirləri statistik göstəricilər bir daha təsdiqləyir.***



Azərbaycan Mərkəzi Bankının məlumatına görə, strateji valyuta ehtiyatları xarici dövlət borcundan təqribən 8 dəfə çoxdur. Mərkəzi Bankın valyuta ehtiyatları ilin əvvəlindən 8,8% artaraq 12,7 milyard ABŞ dollarına çatıb ki, bu da 9 aylıq mal və xidmət idxalını maliyyələşdirməyə kifayətdir.

İyul ayının sonuna olan məlumata görə, Mərkəzi Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 12 milyard 880,3 milyon dollar təşkil edir.

Dövlət Neft Fondunun aktivləri isə 34 milyard 678,4 milyon ABŞ dolları məbləğindədir. 2013-cü il iyulun əvvəlinə olan vəziyyətə görə fondun aktivləri 2013-cü ilin əvvəli ilə müqayisədə 1,6% artmışdır.

Hazırda ölkəmizdə strateji valyuta ehtiyatlarının ümumi daxili məhsula nisbəti 70%-ə yaxındır. Ümumilikdə strateji valyuta ehtiyatlarının yüksək templə artımı ölkə iqtisadiyyatının mümkün xarici böhran təsirlərinə qarşı həssaslığını azaldan və güclü «makroiqtisadi bufer» formalaşdıran amildir. Bunun nəticəsi olaraq, ölkənin xalis beynəlxalq investisiya mövqeyi əlverişlidir.

**Rəşad SADIQOV**

*Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yenilikləri, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Nağdsız ödəniş sisteminin inkişaf perspektivləri», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 44 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata layiq görülmüşdür. Müsabiqədə yüksək yer tutmuş növbəti məqaləni təqdim edirik.*

# Əmək müqaviləsi işçinin mənafeyinə xidmət edir

Ölkə iqtisadiyyatının yüksək inkişaf tempi özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafı fonunda müxtəlif istehsal və emal müəssisələrinin yaradılması, yeni iş yerlərinin açılması, daimi iş yerlərinin çoxalmasına şərait yaradır. Bunlarla yanaşı, hər il müxtəlif sahibkarlıq subyektlərinin fəaliyyətlərində ciddi nöqsanlar, çatışmazlıqlar və bəzən də çoxsaylı qanun pozuntuları da özünü büruzə verir. Söhbət əmək bazarında qeyri-leqal məşğulluğun ciddi problemə çevrilməsindən gedir. Qeyd etmək lazımdır ki, əksər hallarda işçi ilə işəgötürən arasında gizli razılaşmalar əldə olunur. Bu zaman iqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qismi qeyri-qanuni işləyir, maaşlar qeyri-leqal şəkildə verilir. Son nəticədə həm işçilərin əmək hüquqları kobud şəkildə pozulur, həm də vergi ödənişləri və Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ödəmələr yerinə yetirilmir, dövlətə milyonlarla manat ziyan dəyir.

İşçilərlə əmək müqaviləsini bağlamayan, yaxud qanuna zidd formada bağlayan müəssisələr təkcə Bakı şəhərində deyil, respublikanın digər bölgələrində də fəaliyyət göstərir. Hətta minimum əməkhaqqı ilə müqavilələrin bağlanması yolverilməz olsa da, belə addım atan müəssisələr kifayət qədərdir. Bu müəssisələr arasında tikinti-inşaat şirkətləri, mənzil-tikinti kooperativləri və s. üstünlük təşkil edir. Bəzi müəssisələrin rəhbərləri maaş cədvəllərini saxtalaşdırmağa da cəhd göstərirlər. Həmin müəssisələrin operativ nəzarət əməliyyatlarını həyata keçirən Vergilər Nazirliyinin təftiş qruplarına təqdim etdikləri sənədlərdəki rəqəmlər, statistik göstəricilər məxfi saxladıqları mühasibat sənədlərindəkindən tam fərqli olur. Məsələn, işçilərə verilən maaşın məbləği rəsmi sənədlərdə bir neçə dəfə az göstərilir. Üstəlik, işçilərin dəqiq sayı ilə bağlı statistik rəqəmlər aidiyyəti qurumlardan və ictimaiyyətdən gizlədilir. Nəticədə, əldə olunan gəlirlərin böyük qismi vergidən yayındırılır.

İşəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanılmaması bir sıra problemlərin yaşanmasına gətirib çıxarır. Məsələn, əmək müqaviləsi olmadan çalışanların həyat səviyyəsi minimum səviyyəyə enir. Texniki və digər təhlükəsizlik tədbirlərinin pozulması zamanı işçilərin hüquqları pozulur. Müqaviləsiz işləyən zərərçəkmiş işçilərə dəyən maddi və mənəvi zərərə görə onlara kompensasiyanın ödənilməsi əksər hallarda mümkün olmur. Hətta zərərçəkmişlər müqavilə bağlamadıqları üçün aidiyyəti orqana, o cümlədən məhkəməyə şikayət etmək hüququndan da məhrum olurlar. Əmək müqaviləsi bağlanmadıqda və aylıq əməkhaqqı düzgün göstərilmədikdə hər hansı bir mübahisə yaranarsa, işçi faktiki aldığı əməkhaqqını tələb etmək hüququnu itirir. İşçinin əmək müqaviləsi olmadıqda işəgötürən istədiyi vaxt müxtəlif bəhanələrlə onu işdən azad edə bilər. Bu zaman işçi Əmək Məcəlləsinin 68, 76, 77, 78, 79 və 84-cü maddələrində nəzərdə tutulan əmək müqaviləsinə xitam verilməsi şərtlərinə əməl olunmadan və müavinətlər ödənilmədən şifahi surətdə işdən azad edilir. Bundan əlavə, əmək müqavilələrinin bağlanılmaması üzündən əksər işçilər qanunvericiliyin onlara verdiyi istirahət hüququndan da istifadə edə bilmirlər. Xatırladaq ki, Əmək Məcəlləsinin müvafiq maddələrinə əsasən, hər kəs həftə ərzində 40 saat işləyə bilər. Hər iş günündən sonra isə növbəti iş gününə qədər ona 12 saat istirahət verilməlidir. Eyni zamanda, vətəndaş ildə bir dəfə 21 gündən az olmayaraq ödənişli məzuniyyət götürə bilər. İmtiyazlı təbəqələr üçün qanunvericilik daha üstün istirahət hüququ müəyyən edir. Bundan başqa, işçi ilə işəgötürən arasında bağlanan müqaviləyə görə, işçiyə əlavə istirahət imkanı verilə bilər. Lakin təcrübə göstərir ki, bəzi işçilər istirahət hüquqlarından yetərincə bəhrələnə bilmirlər. Bu, daha çox özəl sektorda müşahidə olunur.




Əmək müqaviləsinin bağlanmaması təkcə dövlət büdcəsinə ödənilməli olan verginin gizlədilməsi deyil, həm də vətəndaşın özü üçün yaratdığı ciddi sosial problemdir. Məlumdur ki, əmək müqaviləsi bağlayan işçi məcburi dövlət sosial sığorta haqqını vaxtında ödəyir və bu faktor onun gələcəkdə pensiya təminatında mühüm rol oynayır. Amma əmək müqaviləsi olmayan, leqallaşdırılmış əməkhaqqı almayan və məcburi dövlət sosial sığorta haqqı ödəməyən vətəndaşlar gələcəkdə pensiya təminatı ilə bağlı ciddi problemlərin təməlini qoymuş olurlar.

Xatırladaq ki, Dövlət Əmək Müfəttişliyi (DƏM) hər il dövlət, özəl müəssisə, idarə və təşkilatlarda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinə əməl olunub-olunmamasını müəyyənləşdirmək üçün dövlət nəzarəti həyata keçirir. Həmin tədbirlər zamanı aşkarlanan kifayət qədər qanun pozuntusunun böyük əksəriyyəti əmək müqavilələrinin bağlanmaması, yaxud onun şərtlərinin yerinə yetirilməməsi, əməkhaqqının hesablanmasındakı və ödənilməsindəki nöqsanlar aşkar edilir. Hətta işdən qanunsuz azad edilmə hallarına da rast gəlinir. Aparılan təhlillərə görə, qanunsuzluqların böyük əksəriyyəti məhz özəl qurumların payına düşür. Hətta törədilmiş inzibati xətalara görə cərimələrin böyük hissəsi də özəl müəssisələrə tətbiq edilir. 2013-cü ilin birinci rübündə 2231 müəssisədə həyata keçirilən dövlət nəzarəti tədbirləri zamanı 4075 hüquq pozuntusu aşkar edilib. 734 müraciət və ərizənin 176-sı əmək haqlarının vaxtlı-vaxtında verilməməsi, 137-si zərər əvəzinə görə müavinətlərin ödənilməməsi, 123-ü işdən qeyri-qanuni azad olunması və onlarla əmək müqaviləsinin bağlanılmaması, 60-ı isə istifadə etmədikləri məzuniyyət günlərinə görə kompensasiya ödənilməməsi barədə olub. Bu tədbirlər zamanı işdən qeyri-qanuni azad edilmiş şəxslərin öz işlərinə bərpa edilməsi də təmin olunub. Hesabat dövründə əmək müqaviləsi bağlamadan işə cəlb olunmuş 3538 nəfərlə əmək müqaviləsinin bağlanılması təmin edilib.

Bütün bu tədbirlərə baxmayaraq, hələ də əmək bazarında qeyri-leqal məşğulluq ciddi bir problem kimi öz aktuallığını saxlayır. Mütəxəssislər hesab edirlər ki, bu istiqamətdə geniş təbliğat-təşviqat işləri, məlumatlandırma və maarifləndirici tədbirlərin həyata keçirilməsi vacibdir. KİV-lərdə maarifləndirmənin aparılması, müxtəlif reklam çarxlarının hazırlanması, hüquqi cəhətdən əsaslandırılmış tövsiyə xarakterli məlumatları özündə əks etdirən kitabçaların, broşürlərin yayılması və digər tədbirlər gücləndirilməlidir.

***Əmək müqaviləsinin bağlanmaması təkcə dövlət büdcəsinə ödənilməli olan verginin gizlədilməsi deyil, həm də vətəndaşın özü üçün yaratdığı ciddi sosial problemdir***

**Müşfiq CƏFƏROV,**
***«Respublika» qəzeti***

# Vahid standartlar keyfiyyətə zəmanət yaradır

*Vergilər Nazirliyinin həyata keçirdiyi vergi siyasətinin başlıca prinsiplərindən biri vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin yüksəldilməsidir. Bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirən nazirlik son illər Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin tətbiqi nəticəsində ödəyicilərə göstərilən xidmətləri genişləndirib, keyfiyyəti artırıb, bu sahədə informasiya təminatı əhəmiyyətli dərəcədə yaxşılaşıb, beynəlxalq təcrübəyə əsaslanan yeni mütərəqqi xidmət vasitələri yaradılıb. «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin İnkişafı Konsepsiyası»nda nəzərdə tutulan digər mühüm layihələrin istiqamətləri müəyyən edilib.*

Konsepsiyada vergi ödəyicilərinə göstərilən xidmətlərin səmərəliliyini artıran əsas amillərdən biri kimi xidmətlərin meyarlarının, hər bir xidmət üzrə vahid standartın müəyyən olunması və bütün vergi orqanları tərəfindən bu standartlara riayət edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Bu məqsədlə vergilər nazirinin əmri ilə vergi ödəyicilərinə xidmətlərin vahid standartları təsdiq edilib. Standartlar vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən bütün xidmətləri, onların reyestrini və göstərilməsi meyarlarını, həmin xidmətlər həyata keçirilən yerlərə və vergi orqanı əməkdaşının davranış və ünsiyyətinə dair ümumi tələb və normaları əhatə edir. Vahid standartların tətbiqində başlıca funksiyalarının genişləndirilməsi, mərkəzlərin fəaliyyət göstərdiyi ərazilərdə xidmətlərin çeşidinin artırılması, vergi ödəyicilərinə ərizə və arayışların verilməsinin mərkəzlər vasitəsilə həyata keçirilməsinin təmin olunması nəzərdə tutulur. Bu məqsədlə müvafiq layihələr hazırlanacaq.

Standartlara, həmçinin, vergi ödəyicilərinə xidmətlərin ümumi prinsipləri də daxildir ki, buraya ödəyicilərin qəbulu üçün nəzərdə tutulmuş yerlərə dair əsas tələblər, vergi ödəyicilərinin qəbulu zamanı davranış prinsipləri, telefon vasitəsilə məlumatlandırma, işgüzar yazışma və digər məsələlər aiddir. Qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq vergi ödəyicilərinin qəbulu zamanı çıxışla və zəruri proqram təminatları, normativ-hüquqi baza ilə təchiz ediləcək.

Vergi orqanları ödəyiciləri qəbul edərkən davranış prinsiplərinə də ciddi şəkildə diqqət etməli olacaqlar. «Vergi işçisinin etik davranış Kodeksinin» tələblərinə uyğun olaraq vergi orqanının qarşısında vergi ödəyicilərinə münasibətdə nəzakətli olmaq, qəbul zamanı vergi ödəyicisini diqqətlə dinləmək, ona lazımi köməyi göstərmək, problemin mahiyyətini aydınlaşdırmaq kimi tələblər qoyulub. Vergi orqanı əməkdaşı vergi ödəyicisinə mövcud elektron xidmətlər, xidmətlərin əldə edilməsi qaydası, o cümlədən Vergilər Nazirliyinin rəsmi internet səhifəsi və «195» Çağrı Mərkəzi barədə məlumat və isti-

*Vahid standartların tətbiqində başlıca məqsəd vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da yaxşılaşdırılması, müasir tələblərə uyğun, rahat və səmərəli şəraitin yaradılması, bütün xidmətlərin vahid reyestrinin aparılmasından ibarətdir*

məqsəd vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da yaxşılaşdırılması, müasir tələblərə uyğun, rahat və səmərəli şəraitin yaradılması, bütün xidmətlərin vahid reyestrinin aparılmasından ibarətdir. Bu meyarlara nail olmaqla vergi orqanı ilə ödəyici arasında xidmət və əməkdaşlıq səviyyəsinin yüksəldilməsi, ödəyicilərin vergi orqanına etimadının gücləndirilməsi əsas hədəf hesab olunur.

Standartların tələbindən irəli gələrək vergi ödəyicilərinə xidmət mərkəzlərinin nı texniki xidmət və rahatlıq prinsipinə ciddi üstünlük veriləcək. Eyni zamanda, gözləmə sektorunda məlumat lövhələri və videoekran yerləşdiriləcək, ekranda vergiyə aid aktual təlimatların, roliklərin nümayiş etdirilməsi təmin olunacaq, elektron növbə və monitorinq sistemləri quraşdırılacaq. Əsas meyarlardan biri də vergi ödəyicilərinin rahatlığı naminə qəbul otaqlarında onların istifadəsi üçün nəzərdə tutulan kompüterlərin («qonaq kompüterləri») yerləşdirilməsidir. Kompüterlər dövlət qurumlarının internet səhifələrinə qamət verməyə, digər xidmətləri yerinə yetirməyə borcludur.

Vahid standartların tətbiqi vergi ödəyicilərinin ən yüksək səviyyədə xidmətlərlə əhatə olunmasına, sahibkarların bilik və məlumatlarının artmasına, vergi sistemində həyata keçirilən davamlı islahatları müntəzəm şəkildə operativ izləməyə imkan verəcək. Bu tədbirlər ödəyicilərin vergi orqanlarına etibar və etimadının yüksəlməsinə öz töhfəsini verəcək.

**E.CƏFƏRLİ**

# Azərbaycanın ticarət imkanları genişlənir

## *Biznes mühitinin yaxşılaşması ticarət tərəfdaşlarının sayının artmasına gətirib çıxarmışdır*

Azərbaycan biznesin təşkili üçün əlverişli şərait yaradan və iqtisadi inkişaf məqsədilə köklü isahatlar həyata keçirən ölkə kimi tanınır. Dünya Bankı tərəfindən hazırlanan «Doing Business» hesabatında Azərbaycan «top islahatçı» ölkə kimi qiymətləndirilmiş, 97-ci pillədən 33-cü pilləyə yüksəlməklə öz mövqeyini xeyli yaxşılaşdırmışdır. «Doing Business» hesabatlarının tarixi ərzində bu, ən yüksək irəliləyiş olmuşdur. Hesabatda Azərbaycan «müəssisənin yaradılması» göstəricisi üzrə 18-ci, «əmlakın qeydiyyatı» üzrə 9-cu yerdə qərarlaşmışdır. Ölkəmiz kommersiya mübahisələrinə baxılma müddətinə görə dünyada 7-ci iqtisadiyyat kimi qeyd olunmuşdur. «Vergilərin ödənişi» göstəricisi üzrə də Azərbaycan mövqeyini əsaslı surətdə yaxşılaşdıraraq, bu sahədə uğurlu islahatlar aparan ilk beş ölkə sırasına daxil edilmişdir. Hesabatda biznes mühitinin yaxşılaşdırılması istiqamətində 2005-ci ildən etibarən Azərbaycanın əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilmiş, bu sahədə ticarətin asanlaşdırılması üzrə keçirən 15 ölkə sırasına daxil olmuşdur.

Dünya Bankının açıqladığı son iqtisadi xülasədə Azərbaycanda iqtisadi artımın cari ildə də davam edəcəyi bildirilmişdir. Təşkilat ölkə üzrə 2013-cü il ərzində qeyri-neft sektorunda iqtisadi artımın 5,5-6% olacağını proqnozlaşdırır.

Cari ilin ötən dövrünün statistik göstəriciləri də deməyə əsas verir ki, Azərbaycanın ticarət imkanları ildən-ilə genişlənir, biznes mühiti gündən-günə yaxşılaşır. Təkcə cari ilin yanvar-iyul aylarında Azərbaycanın pərakəndə ticarət bazarında əhaliyə 10,7 milyard manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 9,2% çox müxtəlif istehlak malları satılmışdır. İstehlak mallarının 52,1%-ni ərzaq, 47,9%-ni qeyri-ərzaq malları təşkil etmiş, qeyri-ərzaq məhsullarının xüsusi çəkisi 4,5% bəndi artmışdır.

Yanvar-iyul aylarında elektron pərakəndə ticarət dövriyyəsinin həcmi 2012-ci ilin eyni dövrünə nisbətən 1,7 dəfə artaraq 1,3 milyon manat təşkil etmişdir. Onlayn rejimdə sifariş verilən istehlak mallarının 86,1%-i hüquqi, 13,9%-i fiziki şəxslərin ticarət şəbəkələrindən alınmışdır. Elektron ticarət dövriyyəsinin 92,8%-ni qeyri-ərzaq malları təşkil etmişdir.

Ümumilikdə, Azərbaycanda pərakəndə satış indeksi (Retail sales index - RSI) 2013-cü ilin iyul ayı üzrə 100,2% təşkil edib. Hesablamalara görə, bu göstərici iyun ayının indeksindən 1,3 faiz bəndi çoxdur. Pərakəndə satış indeksi ay ərzində satılmış malların (iaşə müəssisələri daxil olmaqla) ümumi dəyərinin əvvəlki ayın eyni həcminə nisbəti kimi hesablanır. Bu ilin iyul ayında ümumi pərakəndə ticarət dövriyyəsi 1 milyard 583,6 milyon manat, iyunda isə 1 milyard 581 milyon manat təşkil edib.

Qeyd edək ki, iyul ayında pərakəndə ticarətin dəyərinin artmasında qiymət amili rol oynamayıb, çünki iyulda iyunla müqayisədə 0,7%-lik deflyasiya müşahidə olunub. Pərakəndə ticarətdə əsas yeri tutan ərzaq malları üzrə aylıq deflyasiya isə 1,7% təşkil edib.

Pərakəndə ticarətin artması əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsindən xəbər verir. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əhalinin alıcılıq qabiliyyəti indeksi 2013-cü ilin yanvar-iyul ayları üzrə 1,36 bənd təşkil edib. Bu göstərici 2013-cü ilin yanvar-iyunun göstəricisindən 0,02 bənd çoxdur.

Qeyd edək ki, əhalinin alıcılıq qabiliyyəti indeksi əhalinin pul gəlirlərinin pərakəndə əmtəə dövriyyəsi və əhaliyə göstərilən pullu xidmətlərin məcmusuna nisbətidir. Bu nisbət əsas iki xərc ödənildikdən sonra əhalinin sərəncamında qalan gəlirlərin hissəsini göstərir. Yanvar-iyul aylarında pərakəndə ticarət dövriyyəsi 10,651 milyard manat, əhaliyə göstərilən pullu xidmətlərin dəyəri 3,301 milyard manat, əhalinin məcmu gəliri isə 18,914 milyard manat təşkil edib. Beləliklə, gəlirlər əsas xərcləri 4,962 milyard manat və ya 35,6% üstələyir.

Azərbaycanda ticarət üçün əlverişli mühit formalaşdıqca xarici ticarət dövriyyəsinin də həcmi yüksələn xətt üzrə artır. Artıq respublikamızla ticarət tərəfdaşları olan ölkələrin sayı 150-yə çatmışdır. Xatırladaq ki, son illərdə Azərbaycanın xarici ticarət dövriyyəsi 5,4 dəfə, o cümlədən ixrac 8,2 dəfə artmışdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, bu ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ticarət əməliyyatlarının həcmi 20 milyard 45 milyon 689 min dollar təşkil edib. Bu, keçən ilin müvafiq dövrünə nisbətən 3,4% çoxdur. Bu ilin 7 ayında ölkənin idxal əməliyyatlarının həcmi 6 milyard 181 milyon 753 min dollar olub ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 16,6% çoxdur.



*«Vergilərin ödənişi» göstəricisi üzrə Azərbaycan mövqeyini əsaslı surətdə yaxşılaşdıraraq, bu sahədə uğurlu islahatlar aparan ilk beş ölkə sırasına daxil edilmişdir*

**Rəşad SADIQOV**

qanunçuluq

# Əmək məzuniyyəti kimlərə və hansı müddətə verilir?

*Qanunvericilik bütün işçilərə onların iş yeri və orta aylıq əmək haqları saxlanılmaqla illik məzuniyyətlər verilməsini nəzərdə tutur. «Trend» agentliyi hüquq məsləhətçisi Pərviz Zamanlı ilə bu mövzuda araşdırma aparmışdır.*

Əmək məzuniyyəti - işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi istirahət vaxtıdır və Əmək Məcəlləsində nəzərdə tutulan müddətdən az olmayaraq verilməlidir.

İşçilərə ödənişli əsas məzuniyyətin minimum müddəti konstitusion qaydada müəyyən edilmişdir ki, bu müddət 21 təqvim günündən az olmamalıdır: «Kənd təsərrüfatı məhsullarının istehsalında çalışan işçilərə, dövlət qulluqçularına, təhsil müəssisəsində pedaqoji iş aparmayan rəhbər işçilərə, təhsil müəssisələrinin metodistlərinə, emalatxana rəhbərlərinə, laborantlara, kitabxanaçılara, dayələrə, bədii rəhbərlərə, elmi dərəcəsi olmayan elmi işçilərə, həkimlərə, orta tibb işçilərinə, əczaçılara ödənişli əsas məzuniyyət 30 təqdim günü müddətində verilməlidir. Pedaqoji və elmi fəaliyyətlə məşğul olan işçilərin əmək məzuniyyətlərinin müddəti 56 təqvim günü müddətində verilir».

Yaşı 16-dan az olan işçilərə əmək məzuniyyəti 42 təqvim günündən, 16 yaşından 18 yaşınadək işçilərə isə 35 təqvim günündən az olmayaraq verilir. Əlilliyin qrupundan, səbəbindən və müddətindən asılı olmayaraq, işləyən əlillərə əmək məzuniyyəti azı 42 təqvim günüdür.

Mövsümi işlərdə çalışan işçilərə isə əsas məzuniyyət, bir qayda olaraq, mövsümün sonunda hər iş ayına görə iki təqvim günündən az olmayan müddətə verilir.

Bəzi kateqoriyadan olan işçilərin əmək məzuniyyətinin müddətləri fərqlidir. Belə ki, Azərbaycan xalqı qarşısında xüsusi xidmətləri olan işçilərə 46, teatr-tamaşa müəssisələrinin, televiziya, radio və kinematoqrafiya qurumlarının bədii və artist heyətlərinə əmək məzuniyyəti 42 təqvim günü, bilavasitə səhnəyə xidmət edən işçilərinə isə 35 təqvim günü müddətində əsas məzuniyyət verilməlidir.

Əmək Məcəlləsi ilə müəyyən edilmiş məzuniyyət hüququ və ondan istifadə qaydaları işəgötürən tərəfindən məhdudlaşdırıla bilməz.

İşçi müvafiq iş ilində əmək məzuniyyətindən hər hansı səbəbdən istifadə etmədikdə, ona həmin iş ili (iş illəri) üçün istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilməlidir. Qanunvericilik əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətlər də müəyyən edib. P.Zamanlının sözlərinə görə, yeraltı işlərdə çalışan, əmək şəraiti zərərli və ağır, habelə əmək funksiyası yüksək həssaslıq, həyəcan, zehni və fiziki gərginliklə bağlı olan işçilərə əməyin şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətlər verilir. Əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətin müddəti 6 təqvim günündən az olmamalıdır.

Həmçinin, qanunvericilik əmək stajına görə əlavə məzuniyyətlərin müddətləri və verilmə qaydasını da müəyyən edir. Əmək stajından asılı olaraq işçilərə beş ildən on ilədək əmək stajı olduqda 2 təqvim günü, on ildən on beş ilədək əmək stajı olduqda 4 təqvim günü, on beş ildən çox əmək stajı olduqda 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir.

Qanunvericilik anaların istirahət hüququnun təmin edilməsi üçün üstünlüklər verir. Belə ki, əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 14 yaşınadək iki uşağı olan qadınlara 2 təqvim günü, bu yaşda üç və daha çox uşağı olan, həmçinin sağlamlıq imkanları məhdud uşağı olan qadınlara isə 5 təqvim günü müddətində əlavə məzuniyyət verilir. Uşaqlarını təkbaşına böyüdən ataların, həmçinin uşaqları övladlığa götürmüş şəxslərin də əlavə məzuniyyət hüququ var.

*Əmək Məcəlləsi ilə müəyyən edilmiş məzuniyyət hüququ və ondan istifadə qaydaları işəgötürən tərəfindən məhdudlaşdırıla bilməz*



Qanunvericiliyə əsasən, bəzi kateqoriyadan olan işçilər əmək məzuniyyətini öz arzusu ilə istədiyi zaman götürə bilərlər. Belə ki, 14 yaşınadək iki və daha çox uşağı olan və ya sağlamlıq imkanları məhdud uşağı olan qadınlara, 16 yaşınadək uşaqları təkbaşına böyüdən valideynə və ya qəyyuma, hərbi qulluqçunun arvadına (ərinə), əlillərə, müharibə veteranlarına, Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması zamanı radioaktiv şüalanmaya məruz qalaraq sağlamlığı pozulmuş və ya şüalanma xəstəliyinə düçar olmuş şəxslərə, yaşı on səkkizdən aşağı olan işçilərə, işləməklə yanaşı təhsil alan, Azərbaycan xalqı qarşısında xüsusi xidmətləri olan işçilərə əmək məzuniyyəti onların arzusu ilə özləri üçün əlverişli olan vaxtda verilə bilər. Həmçinin, müəssisədə işlədiyi müddətdən asılı olmayaraq işçinin arzusu ilə əmək məzuniyyəti arvadının hamiləliyə və doğuşa görə məzuniyyətdə olduğu dövrdə verilir.

Qanunvericilik əmək məzuniyyətinin başqa vaxta keçirilməsi ilə bağlı halları da müəyyənləşdirib. İşçi əmək qabiliyyətini müvəqqəti itirdikdə, əmək məzuniyyəti ilə sosial məzuniyyət bir vaxta düşdükdə, işəgötürənin tapşırıqlarını yerinə yetirmək üçün başqa yerə ezam edildikdə əmək məzuniyyəti işçinin təşəbbüsü ilə başqa vaxta keçirilə bilər.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Audit

# Mühasibat və vergi uçotunun fərqli xüsusiyyətləri

## *Müvəqqəti və daimi fərqlər*

Mühasibat uçotu və vergi uçotu arasındakı fərq anlayışının mühasibləri maraqlandıran məsələ olmasına baxmayaraq, bir çox təsərrüfat subyektlərində uçotun yalnız vergi məqsədlərinə uyğun qurulması davam etməkdədir. Mühasibat işinin təşkili məqsədilə vergi qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış uçotun qurulması və maliyyə hesabatlarının hazırlanması təsərrüfat subyektinin real maliyyə vəziyyətini (xalis aktivlərini) təhrif edə bilər. Ona görə də müəssisələrdə uçotun mühasibat və vergi məqsədləri üzrə siyasəti bir-birindən fərqləndirilməlidir.

Burada maraqlı olan «fərq» anlayışıdır. Aydındır ki, təsərrüfat subyektində baş verən təsərrüfat əməliyyatları və bu əməliyyatların pulla, həmçinin miqdar və digər zəruri göstəricilərlə ifadəsi uçotda əks etdirilir. Lakin elə təsərrüfat əməliyyatları vardır ki, onlar mühasibat uçotunda nəzərə alınır, vergi uçotunda isə nəzərə alınmır və ya əksinə. Məsələn, sadə formada desək, hər hansı əməliyyat üzrə hesablanmış gəlir vergi uçotunda gəlirə aid edilir, mühasibat uçotunda isə gəlirə aid edilmir. Yaxud da hər hansı xərc mühasibat uçotunda nəzərə alınır (tanınır), vergi uçotunda isə nəzərə alınmır. Deməli, bir məbləğ uçotun birində tanınır, digərində isə tanınmır və bununla da gəlirlərdə və ya xərclərdə fərqli məbləğlər yaranır. «Fərq» dedikdə, mühasibat uçotunda bəzi əməliyyatlar və ya hesabat maddələri üzrə (gəlirlər, xərclər, mənfəət və digər balans göstəriciləri) vergi uçotunda eyni adlı əməliyyat göstəricilərində olduğundan fərqli məbləğlərin meydana gəlməsi başa düşülür. Məsələn, mühasibat uçotu üzrə mənfəət və zərərlər haqqında hesabatda göstərilən «əsas əməliyyat gəliri» ilə vergi uçotu üzrə mənfəət vergisi bəyannaməsində göstərilən «malların təqdim edilməsindən gəlir» göstəricisi, yaxud da mənfəət və zərərlər haqqında hesabatda xərclərin yekunu ilə mənfəət vergisi bəyannaməsində göstərilən ümumi gəlirdən çıxılan xərclər göstəricisi fərqli ola bilər.

Fərqləri yaradan amil vergi qanunvericiliyinin tələbləridir. Əslində, belə tələblər vergi yığımının tənzimlənməsində mütləq vacibdir, lakin bu tələblər müəssisənin real maliyyə göstəricilərinin açıqlanmasına qarşı deyildir.

Fərqlərin izahına keçməzdən əvvəl mühasibat uçotu (birinci) ilə vergi uçotunda (ikinci) eyni məna daşıyan, lakin müxtəlif adlandırılan ifadələrə nəzər salaq. Birincidə hesablanmış satış (iş, xidmət) ikincidə vergiyə cəlb olunan gəlir kimi, birincidə malların satışı ikincidə malların təqdim olunması kimi, birincidə satışın maya dəyəri və ya xərclər ikincidə gəlirdən çıxılan xərclər kimi, birincidə tanınmayan xərclər ikincidə gəlirdən çıxılmayan xərclər və ya gəlirdən məhdudlaşdırılmaqla çıxılan xərclər kimi, birincidə sair əməliyyat gəlirləri ikincidə amortizasiya olunan əsas vəsaitlərin təqdim edilməsindən gəlir kimi və sair. Eyni məna daşıyan ifadələrin fərqli adlandırılmasının səbəbi vardır. Məsələn, vergi qanunvericiliyində «satış» ifadəsi işlədilmir, yalnız «təqdim olunma» ifadəsi vardır. Çünki «təqdim olunma» anlayışı mülkiyyət hüququnun dəyişməsini bildirir və həm satışı, həm də hədiyyə verilməni özündə əks etdirən ümumi məna daşıyır. «Satış» anlayışı isə əvəzli əməliyyatdır və hədiyyə verilmə mənasını daşımır. Təsərrüfat subyektlərinin öz mallarını əvəzsiz olaraq hədiyyə verməsi vergi yığımına mənfi təsir göstərə bilər və buna görə də vergi qanunvericiliyinin tələbinə əsasən, vergitutma məqsədləri üçün vergi uçotunda malın hədiyyə verilməsi bazar dəyərində mənfəət vergisinə cəlb olunan əməliyyatdır. Mühasibat uçotunda isə əvəzsiz verilən hədiyyə heç bir gəlir və ya kapital artımı gətirmədiyinə görə, yəni reallıq nəzərə alınaraq müəssisənin gəliri kimi qəbul edilmir və ya edilə bilməz. Digər bir misal: qanunvericiliyə əsasən, vergitutma məqsədləri üçün faktiki çəkilmiş ezamiyyə xərclərinin müəyyən olunmuş miqdardan artıq hissəsi gəlirdən çıxılan xərclərə aid edilmir, yəni ezamiyyə xərcləri məhdudlaşdırılır. Çünki ezamiyyə xərci daha çox şəxsi və ya fərdi istehlak xarakteri daşıdığına görə, xərclərin şişirdilməsinə və bununla da vergi yığımına mənfi təsir göstərə bilər. Mühasibat uçotunda isə bu xərc sahibkarın marağı çərçivəsində olduğuna görə, həcmi yalnız daxili siyasətlə məhdudlaşdırıla və ya məhdudlaşdırılmaya bilər.

Deməli, hər iki uçotda fərqlərin yaranması labüddür, qaçılmazdır və fərqlərin yaranması vergi tənzimlənməsini və nəzarətini həyata keçirən amildir. Mühasiblər və auditorlar bu vacib amilə diqqətlə və həssaslıqla yanaşmalı, maliyyə hesabatlarında və vergi bəyannamələrində göstəriciləri müvafiq sahə qanunvericiliyinə uyğun təqdim etməlidirlər.

Fərqlər daimi qalan (daimi) və yarandıqdan sonra müəyyən dövrün sonunda silinən (müvəqqəti) ola bilər.

**Ardı növbəti sayımızda**

# Vergi yoxlamaları nəticəsində hesablanan vergilərin, maliyyə sanksiyalarının və faizlərin vergi uçotu

Qulu Soltanov,
sərbəst auditor

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq aparılan kameral və səyyar vergi yoxlamaları nəticəsində vergi ödəyicisinə qanunauyğun olaraq vergilər, maliyyə sanksiyaları və digər məcburi ödənişlər tətbiq oluna bilər. Yoxlamalar zamanı hesablanmış məcburi ödənişlər təsərrüfat subyektinin hesabat dövrünün xərcləri kimi tanınmalıdır. Mühasibləri maraqlandıran əsas məsələ həmin xərclərlə bağlı ikili yazılışların verilməsidir. Mühasib ikili yazılışları verməzdən əvvəl vergi uçotu məqsədləri üçün bu xərclərin xüsusiyyətini müəyyənləşdirməlidir.

Aydındır ki, yoxlama zamanı hesablanmış əlavə vergilər yayındırılmış və ya azaldılmış vergilərdir. Əgər azaldılmış vergilər gəlirdən çıxılan əmlak, yol, torpaq və mədən vergisidirsə (maddə 201.6, maddə 208.7, maddə 212.3), deməli, bu vergilər üzrə əlavə hesablanmış məbləğlərin də hesabat dövründə gəlirdən çıxılan xərclərə aid edilməsi qanundan kənar hesab edilməməlidir.

Fiziki şəxslərin muzdlu işlə əlaqədar alınan gəlirindən verginin (əməkhaqqından tutulan gəlir vergisinin) və ödəmə mənbəyindən tutulan digər vergilərin (qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlı əldə etdiyi faiz gəliri, dividend, əmlakın icarəyə verilməsindən gəlir və royaltidən ödəmə mənbəyindən tutulan gəlir vergisinin) Vergi Məcəlləsinin tələbinə əsasən qarşı tərəfdən tutulmalıdır. Deməli, bu vergilər vergi ödəyicisi tərəfindən vergi agenti olaraq ödəmə mənbəyindən tutulmalı olduğuna görə vergi ödəyicisinin xərci kimi qəbul edilməməlidir. Bu səbəbdən də yoxlama zamanı göstərilən vergilər üzrə əlavə hesablamalar gəlirdən çıxılan xərclərə aid edilməməlidir. Vergi ödəyicisinin hüququ vardır ki, düzgün hesablanmadan az tutulmuş gəlir vergisini qanunla müəyyən olunmuş qaydada işçinin gələcək əməkhaqqından tutsun və ya ödəmə mənbəyindən tutduğu vergini faiz gəliri, dividend, icarə gəliri, royalti ödədiyi fiziki şəxsdən geri tələb etsin.

Yoxlama nəticəsində hüquqi şəxslərin mənfəət vergisi və fiziki şəxsin sahibkarlıq fəaliyyəti ilə əlaqədar gəlir vergisi üzrə əlavə hesablanmış məbləğlərin Vergi Məcəlləsinin 119.1.1-ci maddəsinə əsasən gəlirdən çıxılmasına yol verilmir.

Yoxlama nəticəsində əlavə dəyər vergisi və aksizlər üzrə əlavə hesablamalar baş verdiyi halda, vergi ödəyicisinin vergiyə cəlb olunan gəliri də artırılmış olur, həmçinin bunun təsiri mənfəət vergisinin dəyişməsinə səbəb olur. Gəlirin (daimi fərqləri yaradan vergi gəlirləri istisna olmaqla) dəyişməsi ilə əlaqədar mühasibat uçotunda müvafiq dövriyyə düzəlişlərinin aparılmasının vacibliyini və Vergi Məcəlləsinin gəlirdən çıxılmayan və məhdudlaşdırılmaqla gəlirdən çıxılan xərclərlə bağlı müddəalarında bu cür vergi xərclərinə məhdudlaşdırmaların olmadığını nəzərə alsaq, gəlirdən çıxılması qanunauyğun hesab edilməlidir.

Sadələşdirilmiş vergi ödəyicisi adətən kiçik sahibkarlıq subyekti olduğuna, həmçinin mənfəət (gəlir) vergisinin ödəyicisi olmadığına görə sadələşdirilmiş vergi gəlirdən çıxılan və ya çıxılmayan xərc anlamına gəlmir. Bu səbəbdən də yoxlama nəticəsində əlavə hesablanmış sadələşdirilmiş vergi məbləğinin xərclərə aid edilməsi qanunauyğun hesab edilməlidir.

Bütün vergi ödəyiciləri üçün aparılmış yoxlamaların nəticəsi olaraq tətbiq olunmuş maliyyə sanksiyaları, faizlər və inzibati cərimələr üzrə hesablanmış məbləğlərin Vergi Məcəlləsinin 119.1.2-ci maddəsinə əsasən gəlirdən çıxılmasına yol verilmir. Lakin sadələşdirilmiş vergi ödəyicisi üçün vergi uçotunda bu ödənişlərin xərclərə aid edilməsi qanunsuz hesab edilməməlidir. Mühasibat uçotunda isə bu xərclər uçot siyasəti ilə müstəqil tənzimlənə bilər.

Kameral və səyyar vergi yoxlamaları nəticəsində qəbul edilən əlavə vergilər, maliyyə sanksiyaları və inzibati cərimələrə görə, həmçinin bununla əlaqədar gəlir və xərc dövriyyələri ilə bağlı vergi ödəyicisinin mühasibat uçotunda müvafiq dəyişikliklər (düzəlişlər) aparılmalıdır. Gəlirdən çıxılmasına yol verilən bu cür vergi məbləğləri mənfəət vergisinin bəyannaməsində digər xərclər kimi göstərilə bilər.

Səyyar vergi yoxlaması aktına və kameral vergi yoxlaması nəticəsində şəxsi vərəqəyə işlənməklə vergi ödəyicisinə göndərilən bildirişə əsasən, hesablanmış məbləğlər üzrə vergi uçotuna uyğunlaşdırılmış ikili yazılışların verilməsi aşağıdakı kimi tövsiyə olunur:

| Əməliyyatların məzmunu | Debet | Kredit |
|---|---|---|
| Əlavə hesablanmış mənfəət vergisi (gəlir vergisi), əməkhaqqından tutulan gəlir vergisi, ödəmə mənbəyindən tutulan digər vergilər, maliyyə sanksiyaları, faizlər və inzibati cərimələr | 81, 87, 88 | 68 |
| Əlavə hesablanmış əmlak, yol, torpaq və mədən vergisi, əlavə dəyər vergisi və aksizlər – inzibati xərclər kimi | 20, 44, 80 | 68 |
| Əlavə hesablanmış sadələşdirilmiş vergi – inzibati xərclər kimi | 20, 44, 80 | 68 |
| Sadələşdirilmiş vergi ödəyicisi üçün maliyyə sanksiyaları, faizlər və inzibati cərimələr – inzibati xərclər kimi | 20, 44, 80 | 68 |




## vergi təqvimi

| AVQUST | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | 31 | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

15 avqust - «5», «(5)» və «6».
20 avqust - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Fiziki şəxslər avqust ayının 15-dən gec olmayaraq illik əmlak vergisinin yarısını yerli (bələdiyyə) büdcəyə ödəyirlər. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Avqust ayının 15-dən gec olmayaraq illik torpaq vergisinin yarısını hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

*Yeni fəaliyyətə başlayan bəzi sahibkarlar daha çox qazanc xülyasına qapılaraq müxtəlif yollara əl atır, vergidən yayınmağı qərara alırlar, amma bunun cinayət olmasının məsuliyyətini sanki yaddan çıxarırlar. Belə sahibkarların bir müddət davam edən biznes macəraları sonradan acınacaqlı nəticələrə yol açır. Azər Vəliyev adlı sahibkar da öz nəfsinin qurbanı olub.*

«Qoş Daş» MMC-nin rəhbəri A.Vəliyev barəsində cinayət işinin başlanmasına əsas səbəb də onun öz fəaliyyəti və vergi əməliyyatlarına dair məlumatları qəsdən saxtalaşdırması olub. Təmir-tikinti işləri ilə məşğul olan A.Vəliyev vergi orqanına təhrif edilmiş məlumatlar təqdim etməklə 21796,7 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırıb. O, müəssisənin fəaliyyətindəki bütün qanunsuzluqları məqsədli şəkildə edib, vergi bəyannaməsində xərcləri süni şəkildə artıraraq vergidən yayınıb, əldə etdiyi gəlirləri şəxsi xərclərinə yönəldib.

A.Vəliyevin törətdiyi əməllər bununla da bitməyib. O, digər vergi fırıldaqçılığına da əl atıb. Sahibkar təmir-tikinti işləri ilə yanaşı, biznesini genişləndirmək üçün özünü ticarət və xidmət sahəsində də sınamaq qərarına gəlib. Bu məqsədlə yeni müəssisə açmağa ehtiyac görməyib, Məhərrəm Dadaşov adlı şəxsdən, necə deyərlər, su qiymətinə - 80 manata «Nəbz-M» MMC-ni alıb. Bu müəssisəyə heç bir işçi götürməyib, onu təkbaşına «işlədib», mühasibat sənədlərini özü tərtib edib, vergi bəyannamələrini bilərəkdən saxtalaşdırıb.

Amma bu fırıldaqçılığın və saxtakarlığın ömrü uzun çəkməyib. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları Azər Vəliyevin qanunsuz əməllərinin üstünü açıblar. Aparılan səyyar vergi yoxlaması və istintaq hərəkətləri nəticəsində «Qoş Daş» MMC-də 21796,7, «Nəbz-M» MMC-də isə 7667,52 manat məbləğində mənfəət vergisinin dövlət büdcəsinə ödənilmədiyi təsdiqini tapıb. Beləliklə, A.Vəliyevin hər iki müəssisədə yol verdiyi vergidən yayınma halları ilə bağlı cinayət işləri bir icraatda birləşdirilərək barəsində cinayət işi açılıb.

İş üzrə təqsirləndirilən şəxs qismində dindirilən Azər Vəliyev ona elan edilmiş ittihamla özünü təqsirli bilib. A.Vəliyev vurulmuş ziyanın 500 manatını dövlət büdcəsinə ödədiyindən Yasamal rayon məhkəməsi bunu məsuliyyəti yüngülləşdirən hal kimi nəzərə alıb və məhkəmənin hökmü ilə o, 1 il müddətinə azadlıqdan məhrum edilib.

**ELBRUS**

beynəlxalq panoram

# Yaponiya Bankı stimullaşdırıcı tədbirlərə hazırdır

Yaponiya Bankının rəhbəri Xaruxiko Kuroda bəyan etmişdir ki, satışdan verginin iki mərhələ üzrə artması ilə əlaqədar meydana çıxa biləcək monetar stimullaşdırma proqramı üçün əlavə tədbirlərin həyata keçirilməsi zamanı belə tədbirlərə zərurət yaransa, buna şübhə ilə yanaşılmayacaq. Satışdan verginin artmasının birinci mərhələsi gələn ilin aprel ayında başlaya bilər.



Xaruxiko Kuroda əlavə etmişdir ki, Yaponiya hökuməti tərəfindən vergi dərəcəsinin artırılacağı halda ölkənin iqtisadiyyatı, çox güman ki, yavaşımayacaq, hökumət isə maliyyə intizamını gücləndirmək üçün sərt tədbirlərə əl atmalı olacaq.

Yaponiya Bankının rəhbəri daha sonra qeyd etmişdir ki, satışdan vergi dərəcəsinin artması müvəqqəti azalmaya gətirib çıxararsa, Mərkəzi Bank hər zaman məqsədlərinə çatmaq üçün öz siyasətini yumşalda bilər: «Vəziyyət bizim planlaşdırdığımız kimi olarsa, siyasətin yumşaldılmasına ehtiyac olmayacaq. Amma biz heç nəyə yüz faiz əmin ola bilmərik, eləcə də baş verə biləcək bütün variantları da təxmin edə bilmərik. Bildiyimiz tək şey budur ki, zərurət yarandığı halda biz heç bir tərəddüd etmədən təcili tədbirlər görəcəyik».

Mərkəzi Bankın rəhbərinin çıxışı satışdan vergi dərəcəsinin artırılmasına ehtiyacın olub-olmadığına qərar verə bilməyən Yaponiya hökuməti üçün xüsusi dəyər daşıyır. Bu ilin ikinci rübündə ölkə iqtisadiyyatının artmasına baxmayaraq, onun artım tempi aşağı düşüb, bu isə Yaponiya iqtisadiyyatının gələn ilin aprel ayından satışdan vergi dərəcəsinin artması ilə əlaqədar təzyiqə tab gətirə biləcək imkanları ilə bağlı şübhələr yaradır.

Cari ilin aprel ayından Yaponiya bankı 2014-cü ilin sonuna pul bazasını 270 trilyon yenə və ya 2,8 trilyon dollara qədər artırmağı vəd edərək fəal monetar stimullaşdırma proqramına başlamışdır.

# Rusiyanın vergi orqanları bankları yeni metodla yoxlayacaqlar

Hökumətin Dövlət Dumasına təqdim etdiyi qanun layihəsində nəzərdə tutulduğuna görə, sənədlərin yoxlanılması yalnız vergi orqanlarının yerləşdiyi ünvan üzrə deyil, bankaların binalarında da həyata keçiriləcək. Ekspertlər belə hesab edirlər ki, bu sənəd tənzimləyici qanunvericiliyin dəyişməsi yolu ilə qısa ömürlü şirkətlərlə çoxdan başlamış mübarizəni davam etdirəcək. İzahat məktubunda qeyd olunmuşdur ki, qanun layihəsi vergi orqanları tərəfindən vergilər və yığımlar haqqında bankların qanunvericiliklə müəyyən edilmiş öhdəlikləri yerinə yetirmələrinə nəzarətin tənzimlənməsinə yönəldilmişdir. Layihənin müəllifləri - Rusiya Federasiyasının Maliyyə Nazirliyinin ekspertləri xatırladırlar ki, kredit müəssisələrinin üzərinə vergi orqanlarının, vergi ödəyicilərinin, eləcə də vergilər və ödənişlər haqqında qanunvericiliklə tənzimlənən münasibətlərin digər iştirakçılarının müraciətlərinə uyğun olaraq vergilərin, ödənişlərin, müvafiq cərimələrin və maliyyə sanksiyalarının köçürülməsi kimi vəzifələr düşür. Vergi orqanı bunların hər birinə nəzarət etməyə borcludur, sadəcə, bu nəzarətin necə yerinə yetirilməsi heç bir qanunda qeyd olunmayıb. Faktiki olaraq vergi nəzarəti bankların yuxarıda qeyd olunan öhdəlikləri üzrə həyata keçirilmir. Sənədin müəllifləri bu boşluğu aradan qaldırmağı təklif edirlər. Beləliklə, qanun lahiyəsi sənəd yoxlamalarını nəinki vergi orqanlarında, bankların binalarında da aparmağı təklif edir. Yoxlama zamanı bankların müştəriləri deyil, bankların özləri yoxlanılacaq. Bankların bu öhdəliklərinin yerinə yetirilməsi üzrə qanunvericiliklə tənzimlənən nəzarət həm vergi orqanlarına lazımi səlahiyyətlər verir, həm də bankların hüquqlarının qorunmasına zəmanət yaradır.



Qanun layihəsinin yeni müddəalarından vergi ödəyiciləri də faydalana biləcəklər. Misal üçün, vergi ödəyicilərinin vergi işçilərinə bank hesablarının açılması, bağlanılması və ya rekvizitlərin dəyişdirilməsi haqqında məlumat verməlVərinə ehtiyac olmayacaq. Bu müddəa ancaq hüquqi şəxs statusunda yaradılmış müəssisələrə, fərdi sahibkarlara, özəl xidmətlə məşğul olan notariatlara, hüquq bürosu açan vəkillərə, eləcə də vergi uçotunu aparmağa məsul olan idarə yoldaşları - investisiya tərəfdaşlıq müqavilələrinin iştirakçılarına da aid olacaq (elektron pul vəsaitlərinin köçürülməsi üçün bu şəxslər tərəfindən korporativ elekron ödəniş vasitələrindən istifadə edilməsi hüququnun yaranması və yaxud bu hüquqa xitam verilməsi). Bundan əlavə, qanun layihəsi vergi orqanlarının federal xəzinədə şəxsi hesabın açılması (bağlanması, rekvizitlərin dəyişdirilməsi ) haqda məlumatlandırılması vergi ödəyiciləri olan müəssisələr tərəfindən deyil, dövlət orqanları tərəfindən yerinə yetiriləcək. Həmçinin vergi orqanlarına müəssisənin yenidən təşkili və ya ləğvi haqda məlumat vermək öhdəliyi də ləğv olunacaq. «Rossiyskaya biznes qazeta»nın eksperti Yeqor Batanov daha öncə bildirmişdi ki, əgər sətirarası mənasına baxsaq, bu lahiyə tənzimləyici qanunvericiliyin dəyişməsi yolu ilə birgünlük sirkətlərlə xeyli əvvəl başlamış mübarizənin davamı təsiri bağışlayır. Məlum olduğu kimi, qısa ömürlü şirkətlər vasitəsilə vəsaitlərin kütləvi çıxarılması kredit müəssisələrinin iştirakı olmadan qeyri-mümkündür. Bir çox vergi mübahisələrinin faktiki şərtlərinə nəzər yetirsək, problemli təşkilatların bütöv şəbəkəsini görərik, bankda hesab açıldığı zaman imzalar eyni mütəxəssisə aid olur.

# Çində vergidən yayınma ilə mübarizə gücləndirilir

*Ölkədə vergidən yayınan ödəyicilərlə mübarizə daha da fəallaşdırılacaq. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına görə, Pekin vergi məsələləri ilə bağlı qarşılıqlı dəstək haqqında Parisdə konvensiya imzalayacaq.*

Bəzi hesablamalara görə, 2000-ci ildən 2011-ci ilə qədər qanunsuz maliyyə müqavilələri və əməliyyatları vasitəsilə ölkədən 4 trilyon dollara yaxın vəsait çıxarılmışdır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının konvensiyası vergidən yayınma ilə mübarizə məqsədi daşıyır. Bu konvensiyanı imzalayan ölkələr bank məlumatları mübadiləsini həyata keçirirlər və vergi inzibatçılığı məsələləri üzrə əməkdaşlıq edirlər.

# «Bitcoin» pul növü kimi qəbul oluna bilər

***Almaniyanın Maliyyə Nazirliyi «Bitcoin» internet valyutasının mühasibat uçotu vahidi olduğunu təsdiqləyən qərar çıxarmışdır.***

Artıq bu valyuta qanunvericilik səviyyəsində texniki olaraq bir pul forması kimi tanına bilər. Almaniya rəsmiləri hesab edirlər ki, hüquqi baxımdan Bitcoin şəxsi depozitin bir formasıdır. Nazirlikdən bildirmişlər ki, Almaniyada vergi ödəyiciləri artıq bir ildir ki, «Bitcoin»dən istifadə edir və adi pul əməliyyatlarından tutulan 25% gəlir vergisindən azad olunurlar. Ölkənin vergi xidmətini bir il ərzində «Bitcoin»ə uyğunlaşdırmaq nəzərdə tutlur, internet-valyutanın qeyri-sabitliyi bunu tələb edir.

# İtalyanlar 17,5 milyard avronu vergidən yayındırıblar

*İtaliyanın maliyyə polisi bəyan etmişdir ki, 2013-cü ildə 5000-ə yaxın vergidən yayınan ödəyici aşkar olunmuşdur, onların büdcəyə ödəmədikləri məbləğ isə 17,5 milyard avro təşkil etmişdir. Ümumilikdə, 4933 ciddi qanun pozuntusu baş vermişdir, 1.771 nəfər öz gəlirlərini bəyan etməməkdə ittiham olunur.*

Təhqiqat zamanı maliyyə polisi 19.250 qeyri-qanuni işçi aşkar edib, onların yarısından çoxunun ancaq «qara bazarda» çalışdığı məlum olmuşdur. Bu xəbər Baş nazir Enriko Lettonun istər yerli, istərsə də beynəlxalq səviyyədə vergidən yayınma ilə «amansız mübarizə aparılacağı» barədə çıxışından bir neçə həftə sonra yayılmışdır.

Bu ilin əvvəllərində vergi qalmaqalı italyan moda dünyasına da təsir göstərmişdi. Dünyanın məşhur dizaynerləri Domeniko Dolçe və Stefano Qabbano 200 milyon avro vergini ödəməkdən yayınmaqda ittiham olunurlar. Onların işi hazırda məhkəmədədir. Hərtərəfli yoxlamaya məruz qalanlar təkcə məşhur italyanlar deyil. Maliyyə polisi artıq vergi fırıldaqçılığının qarşısını almaq üçün «redditometro» adlı yeni elektron sistemi tətbiq etmişdir: proqram bəyan edilmiş gəlirlərlə xərclərin müqayisəsini verir. İpoteka kreditləri, avtomobillər, hətta ərzaq alışı ilə bağlı məlumatlar diqqətə alınmaqla ilkin olaraq son dörd il ərzində 35000 seçilmiş ev təsərrüfatlarının bəyannamələri təhlil ediləcək. Gəlir və xərclər arasında 20%-dən çox fərq müəyyən olunduğu halda, «redditometro» dərhal vəziyyəti aydınlaşdırmaq üçün vergi yoxlaması çağırır. Vergi administrasiyasının direktor müavini Marko di Kapua jurnalistlərə bildirmişdir ki, yeni sistem məlumatlar bazasını təhlil edən onlarca kompüterdən təşkil olunmuşdur və daha çox «vergidən yayınan ödəyiciləri və yalançı yoxsulları» aşkar etmək üçün istifadə olunacaq.



krossvord



**Yuxarıdan aşağı:**

1.Qığırdaqlı yırtıcı balıq; 2.Gəlir və xərcləri özündə əks etdirən sənəd; 3.Keçmiş SSRİ-də aparıcı dövlət informasiya agentliyi; 4.Məşhur italyan opera müğənnisi, tenor (1873-1921); 5.Cənubi İspaniyada şəhər; 6.Çox zaman hərbi əməliyyatlar zamanı müəyyən bir ərazini xarici aləmdən ayırmaq üçün tətbiq edilən zorakılıq; 9.Həftənin günü; 11.Türk, monqol və altay şamanizmində və xalq inancında müqəddəs enerji; 13.İctimai nəqliyyat vasitəsi; 14.Cənubi Amerikada dövlət; 15.İnsanlar və ya qruplar arasında münaqişə; 17.Fransada çay; 18.İdman komanda oyunu; 21.Fizikada bölünməyən hissəcik; 22.Psixologiyada tələbatların təmin olunması ilə əlaqədar insanı fəaliyyətə təhrik edən amillər; 23.Materiyanın bir hissəsi.

**Soldan sağa:**

1.Köməkçi; 5.Su keçisi cinsinə aid heyvan növü; 7.Opera, balet, dram, kinofilm, və s. əsərlərə orkestr müqəddiməsi; 8.Üç nəfərdən ibarət musiqi ansamblı; 10.Mineral; 12.ABŞ-da ştat; 14.Alken sırasına daxil olan doymamış karbohidrogen; 16.Tibb müəssisələrində otaq, həmçinin bəzi hökumət və ictimai qurumların adı; 19.Napoleon qoşunlarının son döyüşü; 20.Kişi adı; 24.Azərbaycan dilində köməkçi nitq hissəsi olan qoşmaya aid söz; 25.Meyvə və ya tərəvəzdən alınmış mət; 26.Avropa Hun İmperiyasının hökmdarı. Atillanın əmisi; 27.Əsərin, ədəbi yaradıcılığın, yaxud cərəyanın ana xətti aparıcı, istiqamətverici motivi, canı, məğzi.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**

1.Pedru; 2.Rəbət; 3.Lirə; 4.Ataman; 5.Kapital; 6.Peçeneq; 9.Xızır; 11.Say; 13.İnarə; 14.Aspirin; 15.Liliput; 17.Aki; 18.Dinamo; 21.Asket; 22.Zəfər; 23.Riqa.

**Soldan sağa:**

1.Pirallahı; 5.Küp; 7.Doberman; 8.Apaç; 10.Usta; 12.Dağıstan; 14.Aylant; 16.Qışlaq; 19.Polaroid; 20.Faiz; 24.Raps; 25.Batiskaf; 26.Not; 27.Flomaster.

Tərtib etdi: Rafael

idman

# Azərbaycan güləşçiləri dünya çempionatında ikinci oldu

*Serbiyanın Zrenyanin şəhərində yeniyetmə güləşçilər arasında dünya çempionatı başa çatmışdır. 69 kq çəki dərəcəsində mübarizə aparan Azərbaycan güləşçisi Abdulmuslim Muxuddinov İsveç, Latviya, Almaniya, Hindistan güləşçilərini mübarizədən kənarlaşdıraraq finala yüksəlmişdir. Həlledici görüşdə İran pəhləvanını məğlub edən A.Muxuddinov dünya çempionu adını qazanmışdır.*

Çempionatın son günündə 46, 54, 63, 76 və 100 kiloqram çəki dərəcələrində sərbəst güləşçilər mübarizə aparmışlar. Həmin gün Azərbaycan güləşçiləri daha 1 gümüş və 2 bürünc medala sahib olmuşlar.

Milli komandamızın üzvü Fazil Həsənov (46 kq) 1/8 finaldan mübarizəyə başlamış və finaladək Cənubi Afrika Respublikasını, Türkiyəni və Yaponiyanı təmsil edən güləşçiləri mübarizədən kənarlaşdırmışdır. Qızıl medal uğrunda görüşdə Qazaxıstan təmsilçisinə uduzan F.Həsənov gümüş medalla kifayətlənmişdir. Çempionatda 63 kiloqram çəki dərəcəsində mübarizə aparmış Teymur Məmmədov ilk görüşündə Latviya idmançısından üstün olmuşdur. Növbəti görüşündə idmançımız ABŞ təmsilçisinə uduzmuşdur. Rəqibin finala yüksəlməsi güləşçimizə təsəlliverici görüşlərə qatılmaq imkanı vermişdir. Qırğızıstan və Moldova güləşçilərini üstələyən T.Məmmədov həlledici görüşdə Hindistan təmsilçisini də məğlub edərək bürünc medala sahib olmuşdur.

Turxan Qurbanov (100 kq) polşalı, yaponiyalı, macarıstanlı güləşçilərindən üstün olmuş, ancaq yarımfinalda İran idmançısına uduzmuşdur. Bürünc medal uğrunda görüşdə Türkiyə təmsilçisini məğlub edən T.Qurbanov dünya üçüncüsü olmuşdur.



Ümumilikdə 1 qızıl, 2 gümüş və 4 bürünc medal qazanan yeniyetmə sərbəst güləşçilərimiz 66 xalla komanda hesabında dünya ikincisi olmuşdur. İlk pillədə Rusiya (85 xal), üçüncü sırada İran (56 xal) komandaları qərarlaşmışlar.

# Karateçilərimiz Yaponiyadan səkkiz medalla qayıtdılar

*Yaponiyanın paytaxtı Tokioda ənənəvi karate do (WSKF) döyüş növü üzrə dünya çempionatı keçirilmişdir. Azərbaycan Ənənəvi Karate Do Federasiyasından bildirmişlər ki, çempionatda 33 ölkədən 700-ə yaxın idmançı birincilik uğrunda mübarizə aparmışdır. Yarışda ölkəmizi federasiyanın prezidenti, VII dan qara kəmər ustası Əhməd Hətəmovun rəhbərliyi altında yeddi idmançı təmsil etmişdir.*



Çempionatda milli komandamız iki qızıl, üç gümüş və üç bürünc, medal qazanmışlar.

Şəxsi yarışda 18-20 yaş qrupunda S.Hətəmov ikinci, F.Fərzəliyev üçüncü yeri tutmuşlar. Komanda «kumite» döyüşündə isə S.Hətəmov, P.Abdullayev və F.Fərzəliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Böyüklərin (senyorların) yarışında 75 kiloqram çəki dərəcəsində «cui kumite» döyüş növü üzrə Mehman Eynalov ikinci, «şobu ippon kumite» döyüş növü üzrə Fuad Əliyev üçüncü, «open kumite»də döyüş növü üzrə isə Orxan Heydərli ikinci olmuşlar. «Komanda kumite» növü üzrə isə M.Eynalov, F.Əliyev, O.Heydərli üçüncü yeri tutmuşlar. Veteranların (ustaların) yarışında 38 yaşdan yuxarı qrupda Ə.Hətəmov fəxri kürsünün ən yüksək pilləsinə qalxmış və çempionatın qızıl medalını qazanmışdır.

Beynəlxalq dərəcəli hakimlər Əhməd Hətəmov və Yusif Məmmədov çempionatın final görüşlərini idarə etmişlər. Yarışdan əvvəl idmançılarımızın iştirakı ilə texniki seminar və kəmər dərəcələrinə imtahan keçirilmişdir. Seminarda təmsilçilərimiz Süleyman Hətəmov, Pənah Abdullayev və Firdovsi Fərzəliyev I dan qara kəmərə layiq görülmüşlər.

# Taekvondoçularımızın Avropa uğuru

*Rumıniyanın paytaxtı Buxarestdə yeniyetmə taekvondoçular arasında Avropa birinciliyinə yekun vurulmuşdur.*

Azərbaycan millisi yarışın son gününü də qızıl medalla başa vurmuşdur. Millimizin üzvü Əliəsgər Əliyev (61 kq) yarımfinalda ermənistanlı Qagik Geqhamyanı mübarizədən kənarlaşdırmışdır. Finalda isə Martinez Saez Alvarodan (İspaniya) üstün olan taekvondoçumuz fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

Beləliklə, yığmamız Avropa birinciliyini 2 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurmuşdur. Millimiz komanda hesabında Rusiyadan sonra ikinci yeri tutmuşdur.

mozaika

tarix

# Qızıl Arslanın Nizami Gəncəviyə verdiyi Həmidünya kəndi tapıldı

*Goranboy rayonunun Həmənli kəndinin Atabəylər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvan tərəfindən Azərbaycanın dahi şairi Nizami Gəncəviyə hədiyyə edilmiş Həmidünya kəndinin olduğu arxeoloji qazıntılar və yazılı dəlillər əsasında sübuta yetirilib.*

Bu barədə «Trend»ə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Gəncə Arxeoloji Ekspedisiyasının rəhbəri Arif Məmmədov məlumat verib.

O bildirib ki, vaxtilə Atabəylər dövlətinin hökmdarı olmuş Məhəmməd Cahan Pəhləvan tərəfindən Nizami Gəncəviyə edilmiş, ancaq sonradan o öldüyü üçün qardaşı Qızıl Arslan tərəfindən hədiyyəsi çatdırılan Goranboy rayonunun Həmənli kəndində arxeoloji tədqiqat işləri aparılıb.

Həmin ərazidə Nizami dövrünə aid xeyli sayda maddi-mədəniyyət qalıqları, məmulatlar, metal əşyalar, numizmatik materiallar, ictimai binaların qalıqları aşkarlanıb. İctimai bina qalıqları əsasən çiy kərpicdən hörülüb.

A.Məmmədov deyib ki, Nizami Gəncəviyə Həmidünya kəndinin verilməsi haqqında məlumatlar onun öz əsərlərində də yer alıb: «Kənd Nizamiyə verildikdən sonra Qızıl Arslanın göstərişi ilə bu kəndə 5 km uzunluğunda saxsı borularla su xətti çəkilir. Biz həmin su xəttinin yerini müəyyənləşdirdik. Onun ətrafı Nizami dövrünə aid olan kərpiclərlə hörülüb. Həmidulla Qəzvini deyirdi ki, Nizami Gəncəviyə verilən Həmidünya kəndində bir bulaq var. Həmin bulaq əhali arasında «Şirin bulaq» adlanır. Biz həmin bulağı aşkarladıq və yerini müəyyənləşdirdik. O bulaqdan təxminən 150 metr məsafədə - cəmi 7 qəbirdən ibarət olan qəbiristanlıq olub. Biz həmin qəbirlərin də yerini müəyyənləşdirə bildik. Apardığımız bütün tədqiqatların yekunları Həmənli kəndinin vaxtilə Nizami Gəncəviyə verilmiş Həmidünya kəndi olduğu təsdiqləndi».

texnologiya

# Yeni standart kommersiya yayımlarına şərait yaradacaq

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) «Teleradio» İstehsalat Birliyi (İB) «DVB-T» və «MPEG4» standartında işləyən teleradio yayım stansiyalarını «DVB-T2» standartına keçirir. Hazırda Azərbaycan ərazisinin 95%-dən çoxu «MPEG4», «DVB-T» formatında rəqəmli yayımla əhatə edilib.*



Bu günlərdə mövcud stansiyaların «DVB-T2» formatına keçirilməsi ilə bağlı protokol təsdiqlənib.

Artıq «Teleradio» İB tərəfindən «DVB-T» formatında işləyən mövcud teleradio yayım stansiyalarında müvafiq modulları dəyişməklə onların «DVB-T2» standartına keçirilməsi üzrə işlər aparılır. Hazırda Bakı şəhərində bir neçə «DVB-T2» standartında yayım həyata keçirən stansiya mövcuddur, gələcəkdə isə bütün stansiyaların bu standarta keçirilməsi planlaşdırılır.

Mövcud «DVB-T» stansiyaları regionlarda 10-12 televiziya kanalının, Bakıda isə 24 kanalın daxil olduğu sosial paketin yayımını təmin edir. «DVB-T2» stansiyaları isə kommersiya yayım xidmətlərinin göstərilməsi üçün nəzərdə tutulub.

İlk növbədə yeni formata keçid yayımı qəbul etməyə hazır olan ərazilərdə həyata keçiriləcək. Qeyd edək ki, bu standartda yayımı qəbul edən «set-box»ların və televizorların olması əsas şərtdir.

Hazırda yerli bazarda aparıcı dünya istehsalçılarının bu standartları dəstəkləyən televizorlarının qiyməti 180-200 manatdan başlayır, «set-box»ların qiyməti isə 30-40 manat civarındadır.

dayərlarimiz

# *Nobel mükafatçısı Bəxtiyar Siracov:* «Həmişə azərbaycanlı kimi yaşamışam»

*Modern.az saytında jurnalist Elmin Nurinin hazırda Avstriyada yaşayan həmyerlimiz - Nobel mükafatı laureatı Bəxtiyar Siracov barədə məqaləsi dərc olunub. Ümidvarıq ki, maraqla oxuyacaqsınız.*

Bəxtiyar Tahir oğlu Siracov 1957-ci il oktyabrın 21-də Bakıda anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tətbiqi-riyaziyyat fakültəsini bitirib, Milli Elmlər Akademiyasının Kibernetika İnstitutuna təyinat alıb. Oradan Moskvaya, SSRİ Elmlər Akademiyasının Hesablama Mərkəzinə ezam olunan Siracov 1980-81-ci illərdə Təkmilləşdirmə Proqramı çərçivəsində tətbiq olunan kompüterləri mənimsəyərək elmi tədqiqat sahəsində fəaliyyətə başlayıb. 1982-ci ildə Moskvada aspiranturaya daxil olub, professor Viktor Bryabinin rəhbərliyi ilə tədqiqat aparıb. 1986-cı ildə Viktor Bryabinin təşəbbüsü ilə «SPEKTR» adlı layihəyə cəlb olunub. 1992-ci ildən isə həyatı Avstriya ilə bağlıdır. 1995-ci ildən İ-NET firmasında işə başlayan azərbaycanlı alim həmin vaxtdan bu günədək MAQATE-də - BMT-nin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyində çalışır.

### Nobel mükafatçısı

Qeyd edək ki, Nobel mükafatı bəzi nominasiyalarda fərdi şəxslərə deyil, bütövlükdə bir komandaya verilir. İqtisadiyyat, fizika və kimya üzrə mükafatlandırma aparılarkən bu hallar müşahidə olunur. Bu zaman Beynəlxalq Nobel Komissiyası həmin komandanın üzvlərinin birlikdə gördüyü işi qiymətləndirirək, onlara ümumi mükafat təqdim edir. Pul mükafatı da komanda üzvləri arasında bölüşdürülür.

2005-ci ildə Nobel Sülh mükafatı uğurlu işlərinə və dünyada sülhün təminatına görə Siracovun çalışdığı agentliyə verilib. Mükafatın təqdim olunduğu komandada əsas fiqurlardan biri olan Bəxtiyar Siracov bu mükafata layiq görülən ilk və hələlik yeganə azərbaycanlı kimi tarixə düşüb. Bu barədə özü belə deyir: «Bizim təşkilatın dünyada sülhün təmin olunmasında əvəzsiz rolu var və bu rol da 2005-ci ildə Nobel mükafatının verilməsi ilə nəticələndi. Beynəlxalq Nobel Komissiyası bizim işimizi dəyərləndirdi və bizi Nobel Sülh mükafatı ilə təltif etdi. Siyahı uzundur. Hamımız sülh prosesinin qorunmasında çox zəhmət çəkmişik. Mən fəxr edirəm ki, bir azərbaycanlı kimi o siyahıda mənim də adım var. Azərbaycanın adının çəkilməsi və dünyada sülhə xidmət edən bir təşkilatda onun da nümayəndəsinin olması, təbii ki, mənə böyük qürur verir».

### Azərbaycan və Bəxtiyar Siracov

Elmin vətəni olmur, deyirlər. Çünki elm özlüyündə bəşəriyyətə xidmətdir. Ancaq alim heç vaxt öz mənsub olduğu milləti, «çıxdığı qını» unuda bilmir. Elmə, yəni bəşəri düşüncəyə xidmət etsə də ruhu həmişə anadan olduğu vətənlə bağlı olur. Bəxtiyar Siracov üçün də Azərbaycan bu anlamı daşıyır: «Daim vətənimə bağlıyam. Həmişə azərbaycanlı kimi yaşamışam, azərbaycanlı kimi hərəkət etmişəm. Burada ölkəmizin səfirliyi, diaspor ilə əlaqələrimiz var və mədəni tədbirlərə gedirəm. Görkəmli sənətkarlarımız



burada konsert verir və mən də iştirak edirəm. Yoldaşlarla görüşür, Azərbaycanla bağlı məsələləri müzakirə edirik. İki ildən bir özüm də vətənə gedir, qohumlarla görüşürəm. Vətənə bağlılıq bizim qanımızdadır. Bu, doğulduğumuz gündən bizə verilən tərbiyədən irəli gəlir. Hara getsək, Azərbaycan ürəyimizdədir. Mən 17 ildir burdayam, amma hələ də Azərbaycan vətəndaşıyam, pasportumu saxlamışam. Evdə xüsusi anten quraşdırmışam ki, Azərbaycan TV-lərinə baxa bilim».

### Həmişə baxdığı heykəl

Vyananın mərkəzi parklarının birində Azərbaycan səfirliyi tərəfindən dahi bəstəkar Üzeyir Hacıbəylinin abidəsi ucaldılıb. Məhz bu səbəbdən, yorucu iş gününün sonunda alim hər dəfə o parka gedərək abidəyə baxır. Söhbətlərində qeyd edir ki, hər dəfə Avstriya vətəndaşları bu heykəlin yanından keçərkən, ayaq saxlayıb bəstəkar haqqında məlumatları oxuyurlar: «Bu məni çox sevindirir».

Evindəki pianoda da çox vaxt Üzeyir bəyin bəstələrini ifa edir. Agentlik tərəfindən Nobel mükafatının ona aid olduğunu bildirən diplom da həmin pianonun üzərindədir.

**Müdriklər deyib ki...**

***«Həyatın ən böyük sevinci – insanlara lazımlı və doğma olduğunu hiss etməkdir».***



***Maksim Qorki (1868-1936)***